Xalqın qəzeti!

# Xalq qəzeti

№ 138 (30832) 9 iyul 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Özəl sektorun xarici bazarlara çıxışına “yaşıl” işıq!




səhifə ⇨ 8

# Azərbaycanın Şərq–Qərb diplomatiyasının yeni kodları

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbə müdiri Hikmət Hacıyev Slovakiyanın nüfuzlu “Hospodárske noviny” qəzetinə verdiyi geniş müsahibə Azərbaycanın çoxvektorlu və balanslı xarici siyasət strategiyasının nə qədər məqsədyönlü və praqmatik olduğunu növbəti dəfə təsdiq edir. Müsahibədə Azərbaycanın həm enerji siyasəti, həm də diplomatik əlaqələrində Şərq-Qərb arasında dayanıqlı körpü rolunu oynadığı nümayiş etdirilir.**



Müsahibənin əvvəlində Hikmət Hacıyev region ölkələrini – xüsusilə Slovakiya və Çexiyanı – Azərbaycanın “ənənəvi dost və tərəfdaşı” kimi təqdim edir. İlk baxışdan H.Hacıyevin fikri diplomatik nəzakət formasında səslənsə də, əslində, Azərbaycanın Qərbə inteqrasiya siyasətinin yeni istiqamətini – Mərkəzi Avropa vektorunu – açıq şəkildə nümayiş etdirir. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı regionlar səviyyəsində fərqli və praqmatik kanallarla aparılır. H.Hacıyevin qeyd etdiyi kimi, Slovakiya və Çexiya ilə münasibətlər iqtisadi, tarixi, mədəni və siyasi yaxınlıqlara da əsaslanır.

(ardı 4-cü səhifədə)




## Müstəqilliyin bərpası və suverenliyin təmin edilməsi tarixi uğurdur

**Tarixi taleyini müstəqil müəyyən etmək, öz ərazisinə, sərvətlərinə sahib olmaq, milli-mənəvi dəyərlərini qoruyub yaşatmaq xalqımızın ən böyük arzusu olmuşdur. Azərbaycanın bərpa edilmiş dövlət müstəqilliyi və suverenliyi bu baxımdan xalqımızın milli mənlik şüurunun, ictimai-siyasi iradəsinin təntənəsidir.**

Əsrlər boyu xarici müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin əvvəllərində dirçəldib itirdiyi dövlət müstəqilliyini 70 il sonra bərpa etmişdir. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında ölkənin yeni Əsas Qanununun hazırlanması nəzərdə tutulsa da, həmin dövrdə daxili siyasi çəkişmələr, iqtisadi böhran və Ermənistanın hərbi təcavüzü buna imkan verməmişdir.

(ardı 5-ci səhifədə)

## Zərərçəkmiş şəxslər təqsirkarları ittiham edirlər



səhifə ⇨ 5

## Aİ Gürcüstanda yerli seçkiləri pozmağa çalışır



səhifə ⇨ 7

## “KƏŞKÜL” jurnalı (qəzet)



səhifə ⇨ 9

## Fransızlar özləri də Makrondan narazıdırlar



səhifə ⇨ 4

## USAİD erası bitdi




səhifə ⇨ 3

# Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa

**Hörmətli cənab Prezident!**

Texas ştatında baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2025-ci il**

# "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında fəlakət və böhranların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il aprelin 28-də Əmman şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında fəlakət və böhranların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İordaniya Haşimilər Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2025-ci il**

# İ.İ.Vəliyevə III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi xidmətinin İcraya nəzarət və kadr məsələləri şöbəsinin müdiri İldırım İmran oğlu Vəliyevə III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2025-ci il**

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilsin:

**birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Məmmədov İlham Nəriman oğlu

Mərdəliyev Seymur Qurban oğlu

**ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Məmmədov Raman Ağamalı oğlu

Səfərova Nərgiz Abbasqulu qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2025-ci il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 200** **Bakı şəhəri, 4 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 621 nömrəli Qərarı ilə təsdiq edilmiş "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 101-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 621 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2566 (Cild I) ilə təsdiq edilmiş "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nın 4.1-ci bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 6.2.11-ci maddəsinə uyğun olaraq sığortaedənlər bu barədə hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, sığortaedən Azərbaycan Respublikasında fəaliyyətini müvəqqəti dayandırdıqda, habelə ləğv edildikdə, yaxud sığortaedənin fəaliyyətinə xitam verildikdə bu barədə müvafiq ərizədə (arayışda) göstərildiyi tarixdən 30 gün müddətində, lakin hesabatın təqdim edilməsi üçün həmin Qanunla müəyyən edilmiş müddətdən gec olmayaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müəyyən edilmiş formada həmin Xidmətə hesabat verməlidirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 194** **Bakı şəhəri, 3 iyul 2025-ci il**

**"Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 68-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 68-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinin 23-cü abzasında "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin.

2. "Kredit tarixçələrini təşkil edən neqativ məlumatların "Elektron hökumət" portalında yerləşdirilməsi, yenilənməsi və kredit büroları tərəfindən əldə edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 iyul tarixli 308 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1505 (Cild I); 2024, № 9, maddə 1083) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və 2-ci hissəsində "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Kredit tarixçələrini təşkil edən neqativ məlumatların "Elektron hökumət" portalında yerləşdirilməsi, yenilənməsi və kredit büroları tərəfindən əldə edilməsi Qaydası" üzrə:

2.2.1. adında "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.1-ci bənddə "Elektron hökumət" portalında (bundan sonra – Portal)" sözləri "Elektron Hökumət İnformasiya Sistemində (bundan sonra – EHİS)" sözləri ilə əvəz edilsin;

2.2.3. Qaydanın mətni üzrə ismin müvafiq hallarında "Portal" sözü ismin müvafiq hallarında "EHİS" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin növbəti plenar iclası



**İyulun 8-də parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib. Parlamentin sədri iclasda 15 məsələnin müzakirə ediləcəyini və gündəliyin ilk 10 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib.**



Birinci məsələ – "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsini Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. Layihə üçüncü oxunuşda qəbul edilib.

Sonra o, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi barədə məlumat verib. Layihə üçüncü oxunuşda qəbul edilib.

Parlamentin spikeri növbəti 2 məsələnin Prezidentin bir məktubu ilə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Qaz təchizatı haqqında" və "Elektroenergetika haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı məlumat verib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunda, Əli Hüseynli "Polis haqqında" Qanunda, Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində, Mülki Məcəllədə, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanunlarda, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim ediblər. Layihələr müzakirələrdən sonra üçüncü oxunuşda qəbul olunub.

S.Qafarova gündəliyin son 5 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. Mülki Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsini İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim edib.

Növbəti iki məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Komitə sədri Əli Hüseynli "Xüsusi icra məmurları haqqında" qanun layihəsini təqdim edib.

Növbəti məsələ olan Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) hazırda Milli Məclisin müzakirəsinə təqdim edilmiş "Xüsusi icra məmurları haqqında" qanun layihəsinə uyğunlaşdırma məqsədilə hazırlanıb. Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda Əli Hüseynli, həmçinin Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Mənzil Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Notariat haqqında", "İcra haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra Əli Hüseynli "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsinə dair məlumatı diqqətə çatdırıb. Layihəsi səsə qoyularaq qəbul edilib.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

***XQ***

# Əli Əsədov Pakistan Milli Assambleyasının sədri ilə görüşüb



**Azərbaycanın Baş naziri Əli Əsədov iyulun 8-də ölkəmizdə rəsmi səfərdə olan Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə qarşılıqlı etimada və dəstəyə əsaslanan Azərbaycan–Pakistan qardaşlıq əlaqələrinin inkişaf dinamikası vurğulanıb. İki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən məmnunluq ifadə olunub.

Parlamentlərarası əməkdaşlığın əhəmiyyəti qeyd edilərək Azərbaycanın və Pakistanın qanunverici orqanları arasında qurulmuş qarşılıqlı faydalı əlaqələrin dövlətlərarası münasibətlərin hərtərəfli inkişafına müsbət töhfə verdiyi bildirilib.

Görüş zamanı, həmçinin iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

***XQ***

# DTX kibertəhlükəsizlik tədbirləri həyata keçirib

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kibertəhdidlərə qarşı mübarizə istiqamətində kompleks tədbirlər davam etdirilir.**



Bu barədə DTX-nin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikasının ərazisində yerləşən müxtəlif ofislərdə və mənzillərdə quraşdırılmış videomüşahidə kameralarının idarəetmə qurğularına (DVR) qlobal internet şəbəkəsi üzərindən məsafədən icazəsiz qoşularaq bu mənzillərdə yaşayan sakinlərin şəxsi və ailə həyatının sirrini təşkil edən məlumatları əks etdirən videomaterialları ələ keçirməklə xarici internet informasiya resurslarına yerləşdirilməsini ehtiva edən qanunazidd əməllərlə bağlı əməliyyat-texniki tədbirlər həyata keçirilib.

Aparılmış araşdırmalarla, həmçinin Azərbaycanda müxtəlif ünvanlarda olan videomüşahidə kameralarının görüntülərinin real vaxt rejimində izlənilməsi imkanına malik istifadəçi hesablarının satışa çıxarıldığı da müəyyən olunub.

Faktla əlaqədar DTX tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə kibermüdaxilə hallarının zərərli nəticələrinin aradan qaldırılması təmin edilib.

Görülmüş təxirəsalınmaz tədbirlərlə kibermüdaxiləyə məruz qalmış müşahidə kameralarının yerləşdiyi ünvanlar təsbit edilib, bu cihazlara keçirilmiş texniki baxış zamanı ümumi təhlükəsizlik boşluğu aşkarlanmış və həmin boşluğun kibermüdaxilənin əsas faktoru olduğu müəyyənləşdirilib.

Eyni zamanda, qeyd olunan təhlükəsizlik boşluğunun aradan qaldırılması aidiyyəti xarici istehsalçı şirkətdən tələb edilib, habelə kibermüdaxiləyə məruz qalmış kameraların videogörüntülərinin xarici internet informasiya ehtiyatlarından silinməsi təmin olunub.

Vətəndaşlara informasiya-kommunikasiya vasitələri ilə bağlı müvafiq qaydalara ciddi riayət etmələri, mənşəyi və texniki göstəriciləri məlum olmayan avadanlıqlardan istifadə zamanı diqqətli olmaları tövsiyə edilir.

***XQ***

# “Medianın inkişafında ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda konfrans



**İyulun 8-də Heydər Əliyev Mərkəzində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə “Medianın inkişafında ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda konfrans təşkil edilib.**





İştirakçılar əvvəlcə Ulu öndərin və Prezident İlham Əliyevin jurnalistlərlə görüşlərini, Azərbaycan mətbuat tarixində mühüm rol oynamış nəşrləri əks etdirən “Azərbaycan mətbuatının 150 ili: Tarixdən günümüzə” adlı sərgiyə baxış keçiriblər.

Konfransda xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Dövlət Himni səsləndirilib.

Daha sonra Ümummilli liderin Azərbaycan mətbuatının tarixi, inkişaf yolu, perspektivləri, eyni zamanda, medianın cəmiyyətdə maarifləndirmə funksiyası və milli dəyərlərin təbliğindəki rolu barədə səsləndirdiyi fikirləri əks etdirən videoçarx nümayiş olunub.

Konfransın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsiplərinin bu gün də dövlətin informasiya siyasətində və medianın fəaliyyətində öz əksini tapdığını və aktuallığını qoruyub saxladığını diqqətə çatdırıb. O, Azərbaycanda müstəqil mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsində, bu sahəni tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmasında Ulu öndərin əvəzsiz rolu barədə danışıb.

Ə.İsmayılov qeyd edib ki, Prezidentin “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamında göstərildiyi kimi, Vətən müharibəsində Qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən “Media haqqında” Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləyib.

Konfrans çərçivəsində “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədr müavini Rafiq Həşimovun moderatorluğu ilə “Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsipləri” mövzusunda panel sessiya təşkil edilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, demokratik dünyanın və demokratik düşüncəyə sahib insanların kəşf etdikləri, arxasında dayandıqları və inkişafına töhfə verdikləri ən vacib sahələrdən biri də mətbuatdır. Bu sahədə əldə olunan nailiyyətlər xüsusi əhəmiyyət kəsb edir.

Noyabr ayında çox vacib bir tarixin - böyük Qələbənin beş illiyinin qeyd olunacağını diqqətə çatdıran TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Medianın İnkişafı Agentliyinin rəhbərliyinə müraciət edərək həmin ərəfədə Prezident İlham Əliyevin Azərbaycan mediasının inkişafındakı rolu ilə bağlı konfransın keçirilməsi təklifini irəli sürüb.

Panel sessiyada çıxış edən YAP İdarə Heyətinin üzvü və Veteranlar Şurasının sədri Arif Rəhimzadə Ulu öndərin dövlətçilik tariximizdəki əvəzsiz rolundan danışıb.

Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Anar İsgəndərov bu gün ölkəmizdə, sözün əsl mənasında, güclü və nüfuzlu mətbuatın mövcud olduğunu vurğulayıb. Deputat qeyd edib ki, media ordusu Azərbaycan tarixini və həqiqətlərini dünyaya çatdırmaq üçün mümkün olan bütün vasitələrdən istifadə edib və bu istiqamətdə mühüm fəaliyyət göstərib.

Milli Məclisin deputatı, Əməkdar jurnalist Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyev təkcə jurnalistikaya deyil, ümumiyyətlə, bütün sahələrdə görülən işlərə xüsusi önəm verirdi.

Tədbirin sonunda “Heydər Əliyevin təhsil siyasəti: jurnalist peşəkarlığının artırılmasında təhsilin rolu” mövzusunda dəyirmi masa keçirilib.

Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərovanın moderatorluğu ilə təşkil olunan müzakirədə jurnalistika və kommunikasiya sahəsində çalışan akademik nümayəndələr iştirak ediblər.

*XQ*

# USAİD erası bitdi

## *Onun missiyasını daşımaq üçün ABŞ hansı mexanizmi tətbiq edəcək?*

**ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) iyulun 1-dən etibarən xarici yardım proqramlarını rəsmi olaraq bağlayıb. Bu proses əslində 6 ay öncədən başlayıb. Prezident Donald Tramp yanvarın 24-də ABŞ-ın xaricə yönəlik yardım proqramlarının araşdırılıb qiymətləndirilməsi üçün sərəncam verib. Sərəncama uyğun olaraq, qarşıdakı 90 gün ərzində ABŞ-ın bütün xarici yardım proqramları dondurulub. Xarici yardımların çatdırılmasında vasitəçi rol oynamış qurumlar üzərində təftişlər başladılıb. Bu kontekstdə araşdırmalara cəlb edilən əsas subyektlərdən biri də ABŞ Beynəlxalq İnkişaf Agentliyi – USAİD olub. Yanvarın 27-də agentliyin funksiyası dondurulub, veb-səhifəsinin yenilənməsi dayandırılıb.**



***Müşfiq ƏLƏSGƏRLİ,***
***media eksperti***

Rəsmi açıqlamalara görə, USAİD dayandırıldığı günə qədər, təqribən, 50 milyard dollar məbləğində illik büdcəyə malik olmaqla, dünyanın ən böyük yardım təşkilatı olub. Quruluş məramnaməsində qeyd edilir ki, bu qurum xarici ölkələrdə “mülki-humanitar yardımların çatdırılmasını, həmçinin, demokratik inkişafı hədəfləyən proqramların icrasını” reallaşdıran təsisat rolunu icra edib. ABŞ Konqresi tərəfindən “Xarici Yardım Aktı” proqramı çərçivəsində təsdiqlənən layihələr USAİD vasitəsilə gerçəkləşdirilib. Tramp 24 yanvar sərəncamını imzalayana qədər USAİD 120-yə yaxın ölkədə minlərlə “humanitar yardım proqramları”nı icra edib.

Amma bu, agentliyin fəaliyyəti barədə məlumatın rəsmi versiyasıdır. Məsələ ondadır ki, USAİD fəaliyyət göstərdiyi ölkələrdə mülki-humanitar kampaniyalar icra etməkdən daha çox, ABŞ-ın siyasi maraqlarının təmin edilməsi üçün çalışıb. O, ABŞ-ın hədəfində olan dövlətlərin ərazisində siyasi proseslərə açıq müdaxilələr etməsi, çaxnaşmalar yaratması ilə məşhurdur. Ozünün “qrant vəsaitləri”ni daha çox ictimai rəy institutlarına – media subyektlərinə, fərdi jurnalistlərə, QHT-lərə, hətta, siyasi partiyalara yönəldib. Qrantlar üzərindən ictimai rəy institutlarını idarə etməklə, özü barəsində müsbət imic yaradıb, cəmiyyətlərin rəğbətini qazanıb. Belə rəğbətdən faydalanaraq həmin cəmiyyətlər üzərində ABŞ Dövlət Departamentinin və Mərkəzi Kəşfiyyat İdarəsinin planlarını həyata keçirib. ABŞ-ın direktivlərindən kənara çıxan ölkələrdə siyasi kataklizmlər törədib, hakimiyyət çevrilişlərinə dəstək verib, xaos və dağıntılar törədib. Müasir terminologiya ilə ifadə etsək, USAİD ABŞ-ın ”yumşaq güc” texnologiyası rolunu oynayıb, onun ekspansiya siyasətini icra edən əsas təsisat olub. Təşkilatın veb-səhifəsində açıq tekstlə qeyd edilirdi ki, agentlik “Dövlət Departamenti və Mərkəzi Kəşfiyyat İdarəsi ilə koordinasiya edilmiş formada fəaliyyət göstərib”.



Maraqlıdır, bəs nə baş verdi ki, ABŞ prezidenti bu cür mötəbər bir qurumun bağlanmasına qərar verdi? Dünya mediası yaxın 6 ay müddətində bu suala cavab axtarır. Səbəblərin bir qismini ABŞ-ın yeni dövlət katibi Marko Rubio özünün “X” hesabında açıqlayıb. O, mart ayının 9-da USAİD üzərində aparılan təhqiqatların ilkin nəticələrini elan edib. Bildirib ki, "6 həftəlik araşdırmadan sonra USAID-in icra etdiyi proqramlarda ciddi nöqsanlar aşkar edilib, proqramların 83 faizinin rəsmən ləğv edilməsinə qərar verilib”. Rubionun 9 mart açıqlamasından belə məlum oldu ki, ləğv edilən 5200 müqavilə on milyardlarla dollar məbləğində vəsaiti əhatə edib: “Amma icra edilmiş həmin proqramlar ABŞ-ın milli maraqlarına xidmət etməyib. Bəzi hallarda isə hətta milli maraqlara zərər vurub. Bu cür layihələr, ümumilikdə, USAİD-in icra etdiyi proqramların 83 faizini əhatə edir”.

Dövlət katibi vurğulamışdı ki, problem aşakarlanan, icrası dayandırılan müqavilələrin kəmiyyəti 83 faizdən 92 faizə qədər yüksələ bilər: “Hələlik icrası zəruri sayılan digər 1000 proqrama nəzafət isə USAİD-dən alınaraq Dövlət Departamentinə verilib”.

Amma Marko Rubionun 9 mart açıqlaması USAİD barədə bütün suallara aydınlıq gətirməyib. Araşdırmaçılar hesab edirlər ki, “dövlət katibi ümumi sözlərlə danışıb, gerçək səbəblərin üzərindən keçib”. Məsələn, qeyd olunur ki, USAİD-in ləğv edilməsinin əsl səbəblərindən biri, onun “daxili siyasətə bulaşmasıdır”. Daxili siyasətdə Demokratlar Partiyasının mövqeyindən çıxış etməsidir. Agentliyin cari rəhbərliyi son prezident seçkiləri dönəmində Demokratlar Partiyasının Respublikaçılar üzərində qələbəsi üçün çalışıb. Konkret desək, Donald Trampın seçkilərdə məğlub edilməsi üçün vəsait xərcləyib. Belə ki, Nyu-Yorkun meri və prezident D.Trampın kibertəhlükəsizlik üzrə keçmiş müşaviri R. Culianiyə qarşı kompromatın tapılması üçün OCCRP-yə 20 mln dollar qonorar verib.

USAİD-nin yanlışları təkcə daxili siyasətə baş qoşub kompromat savaşına girişməsi ilə bitmir. O, xarici siyasət kursunda da ciddi qüsurlara yol verib. Xarici ölkələrdə “humanitar yardım” proqramları icra etmək, bu yolla həmin cəmiyyətlərdə ABŞ-a rəğbət formalaşdırmaq əvəzinə, özünün kobud, yanlış siyasəti və davranışları ilə bəzən dost ölkələri də narazı salıb, rəqibə çevirib. Bu fakt dövlət katibi Marko Rubionun açıqlamalarında da öz əksini tapıb.

Hər nə səbəbdən olursa-olsun, USAİD-in fəaliyyəti dayandırıldı. İyul ayının 1-dən etibarən, onun fəaliyyətinə rəsmən xitam verildi. Amma bu, ABŞ-ın qlobal siyasətdə ambisiyalarının yox olması anlamını daşımır. O, “dünya hakimiyyəti” uğrunda savaşını davam etdirir. Bəs bu mərhələdə ABŞ üçün “yumşaq güc” missiyasını kim icra edəcək? ABŞ “yumşaq güc” missiyasını icra edən təşkilatları formatlayırmı? Yoxsa yeni metodologiya tətbiq edir?

Yəqin ki, yaxın günlərdə bu suala da cavab tapılacaq.

# Qiymət sərfəli, baza səviyyəsi yüksək

## *Azərbaycanın internet tarifləri rəqabət üstünlüyünü qoruyur*

**Son illər region ölkələrində rəqəmsal infrastrukturun inkişafı və internet xidmətlərinin keyfiyyəti ictimai diqqət mərkəzindədir. İnternetin sürəti, əhatə dairəsi və əlçatanlığı qədər, tariflərin səviyyəsi də əhalinin rifahı və rəqəmsal bərabərlik baxımından mühüm göstəricilərdən sayılır. Bu baxımdan, beynəlxalq statistik resurslar və real bazar qiymətləri əsasında Azərbaycanla Ermənistan arasında aparılan müqayisəli təhlillər diqqətçəkən nəticələr ortaya qoyur.**

Qiymət dinamikasından tutmuş dövlət tənzimləməsinə, bazar strukturundan valyuta təsirlərinə qədər bir sıra amillər internet xidmətlərinin maya dəyərinə birbaşa təsir göstərir. Məlum olur ki, Azərbaycanda eyni texniki göstəricilərə malik fiber-optik internet paketləri hazırda abonentlərə daha münasib qiymətlərlə təqdim olunur. İndi isə həm statistik mənbələr, həm də real bazar təklifləri üzərindən bu fərqlərin səbəblərinə birlikdə nəzər salaq.



### Rəqəmlər nə deyir?

Mövzu ilə bağlı Naxçıvan Dövlət Universitetinin müəllimi Yunis Xəlilov XQ-yə bildirdi ki, Numbeo platformasının 2025-ci ilin iyul ayı üzrə “Internet, 60 Mbit/s və daha yüksək (limitsiz, kabel/ADSL)” kateqoriyası üzrə məlumatları maraqlı bir mənzərə ortaya çıxarır. Ermənistanda orta aylıq internet haqqı 7.456 dram (təxminən 18,4 ABŞ dolları) olduğu halda, Azərbaycanda bu göstərici 25,83 manat, yəni 15,2 dollar səviyyəsindədir. Beləliklə, nominal baxımdan Azərbaycandakı mövcud internet tarifləri daha ucuz görünür.

### Real bazar: eyni sürət, fərqli qiymət

“Numbeo”nun statistikası ümumi göstəricilərə əsaslansa da, konkret fiber-optik internet paketlərinin müqayisəsi daha aydın mənzərə yaradır. Ermənistanda fəaliyyət göstərən “Team Telecom Armenia” və “Ucom” şirkətlərinin 100 Mbit/s sürətə malik limitsiz internet paketləri 7.990 – 9.500 dram (təxminən 19,7 – 23,5 dollar) aralığında dəyişir. Azərbaycanda isə “Aztelekom” və “CityNet” kimi aparıcı provayderlər eyni sürətə malik fiber-optik paketləri 25 manata (təxminən 14,7 dollar) təqdim edir. Beləliklə, real bazar müqayisəsində Azərbaycanın təklif etdiyi xidmətlər 25–35 faiz daha ucuz başa gəlir.

### Qiymət fərqinə təsir edən əsas amillər

Bazarlar arasındakı qiymət fərqləri təsadüfi deyil. Bunlar bir sıra sistemli amillərlə izah olunur:

**1.** Valyuta rejimi və məzənnə sabitliyi. Ermənistan dramının son illər ərzində möhkəmlənməsi orada xidmətlərin dollar ifadəsində dəyərini azaltsa da, Azərbaycanda uzun müddətdir qorunan sabit məzənnə (1 USD = 1,70 AZN) tariflərin də dəyişməz qalmasını təmin edib.

**2.** Dövlət tənzimləməsi və subsidiyalar. Azərbaycanda “Onlayn Azərbaycan” layihəsi çərçivəsində dövlət vəsaiti hesabına genişzolaqlı GPON infrastrukturu regionlara qədər yayılıb. Bu isə provayderlərə daha aşağı maya dəyəri ilə xidmət göstərmək imkanı yaradıb. Həmçinin, ölkədə internet tariflərinə maksimum qiymət həddi tətbiq olunur ki, bu da istehlakçı üçün əlverişli mühit yaradır.

**3.** Bazarın strukturu və trafikə çıxış. Ermənistanda beynəlxalq trafik hələ də məhdud upstream kanallarından asılıdır. Azərbaycanda isə “Delta Telecom” kimi operatorların illik müqavilələri sayəsində magistral trafik xərcləri aşağı düşür, bu da son–məsafə provayderlərinin təkliflərinə müsbət təsir göstərir.

**4.** Şəhər-region fərqləri. Ermənistanın paytaxtı Yerevanda yüksək sürətli internet daha əlçatan olsa da, rayonlarda hələ də 50 Mbit/s sürətli paketlər geniş yayılıb. Bu da ölkə üzrə orta qiymətləri artırır. Azərbaycanda isə GPON infrastrukturunun regionlarda da tətbiqi nəticəsində paytaxtla bölgələr arasında qiymət fərqi minimuma enib.

Beynəlxalq platformaların statistikası, provayderlərin real bazar təklifləri və tənzimləyici mexanizmlərin təhlili göstərir ki, Azərbaycan internet xidmətlərinin qiymətində rəqabət üstünlüyünü qorumaqdadır. Ölkədə həm sürət, həm də qiymət baxımından əlverişli bir rəqəmsal mühit formalaşır. İstər şəhər mərkəzlərində, istərsə də regionlarda fiber-optik infrastrukturun genişlənməsi fonunda vətəndaşlar daha yüksək keyfiyyətli internetə daha münasib qiymətlərlə çıxış əldə edirlər. Bu isə təkcə texnoloji deyil, sosial-iqtisadi tərəqqinin də vacib göstəricisidir.

*Azər MUSTAFAYEV*

# Azərbaycanın Şərq – Qərb diplomatiyasının yeni kodları



(əvvəli 1-ci səhifədə)

Mövcud yanaşma, həmçinin Azərbaycanın Avropa daxilində əlaqələrini şaxələndirmək və Qərbin daxili strukturunda balans yaratmaq cəhdini əks etdirir. Əgər Qərbi Avropada Azərbaycanın strateji tərəfdaşları enerji və ticarət əhəngləri ilə təmsil olunursa, Mərkəzi və Şərqi Avropada isə daha çevik, lakin sabit və açıq əməkdaşlıq üçün platforma yaradan ölkələrlə münasibətlər inkişaf etdirilir. Mərkəzi Avropa ölkələrinin, xüsusilə Slovakiyanın enerji təhlükəsizliyi gündəmində Azərbaycanın rolu getdikcə artır. Avropanın enerji xəritəsində alternativ təchizat mənbələrinə ehtiyac artdıqca, Bakı bu ehtiyacın real ödəyicisinə çevrilməkdədir.

*

Hikmət Hacıyevin müsahibəsində enerji Azərbaycanın xarici siyasətinin mühüm strateji aləti kimi ön plana çıxır. Hazırda Azərbaycan qazı birbaşa səkkiz Avropa ölkəsinə çatdırılır və ümumilikdə 12 ölkə bu resursdan istifadə edir. Məhz bu rəqəmlər Azərbaycanın Avropanın enerji təhlükəsizliyində kritik rol oynayan bir oyunçuya çevrildiyini sübut edir. H.Hacıyev müsahibəsində Azərbaycanın artıq ba-



zarın tələbini qarşılayan reaktiv aktor yox, strukturun özünü formalaşdırmaq istəyində olan proaktiv aktor olduğunu göstərir.

Mühüm məqam odur ki, Azərbaycan bu strateji əlaqələri Qərb ilə münasibətlərdə etibarlılıq platforması üzərində qurur. Prezidentin köməkçisinin qeyd etdiyi kimi, Azərbaycan "heç bir zaman siyasi şərtlərlə işləməyib" və "enerji əməkdaşlığı təzyiq alətinə çevrilməyib". Bütün bu amillər Azərbaycanın enerji siyasətini Rusiya ilə müqayisədə daha etibarlı, daha praqmatik və daha öhdəlikli tərəfdaş kimi göstərmək üçün incə bir strateji mesajdır. Eyni zamanda, müsahibədə qeyd olunan "top indi Avropa İttifaqının tərəfindədir" ifadəsi özündə Bakının real diplomatiyasını əks etdirir. Azərbaycan Avropaya uzunmüddətli qaz təchizatı üçün texniki və resurs bazasına malikdir, lakin bunun üçün infrastruktur və müqavilə bazası Avropadan gəlməlidir.

*

H.Hacıyev müsahibəsində Azərbaycan diplomatiyasının ən səciyyəvi xüsusiyyətlərindən biri kimi çoxvektorlu və balanslaşdırılmış xarici siyasət kursunu xüsusi vurğulayır. Azərbaycanın eyni vaxtda Rusiya, İran və Çin kimi avtoritar meylli regional güclərlə, eləcə də ABŞ, Avropa İttifaqı və İsrail kimi Qərb yönümlü aktorlarla paralel, stabillik əsasında əməkdaşlıq etməsi onun xarici siyasətindəki praqmatizmin və rasional maraq əsaslı yanaşmanın bariz nümunəsidir.

Balanslı kurs Bakı üçün bir sıra üstünlüklər yaradır. Qlobal güclər arasında artan qarşıdurmalar fonunda Azərbaycan birtərəfli bloklara qoşulmaqdan yayınaraq siyasi manevr imkanlarını qoruyur. Beləliklə, Bakı özünü böyük güclərin rəqabət meydanına çevirmədən milli maraqlarına uyğun siyasət yürüdə bilir. Diplomatik kanalların hər tərəfə açıq qalması Azərbaycanın həm enerji ixracı, həm də investisiya cəlbi baxımından çevik və sərfəli danışıqlar aparmaq imkanlarını artırır. Xüsusilə, Rusiya–Ukrayna müharibəsi fonunda Azərbaycanın neytral və humanitar əsaslı mövqeyi ona regionda vasitəçi və balanslaşdırıcı aktor kimi reputasiya qazandırır.

Müsahibədə qeyd olunan İsrail–İran balansı da bu yanaşmanın əyani nümunəsidir. Bakı İsraillə strateji təhlükəsizlik əməkdaşlığı qurduğu halda, eyni zamanda İranla gərginliyi azaltmağa və "normal qonşuluq münasibətləri" saxlamağa çalışır. Azərbaycanın Qoşulmama Hərəkatındakı fəal rolu da bu siyasətin institusional platforması rolunu oynayır. Bakı bu təşkilat çərçivəsində bir tərəfdən inkişaf etməkdə olan ölkələrin səsini beynəlxalq arenada təmsil edir, digər tərəfdən isə hərbi və siyasi bloklara qoşulmadan müstəqil siyasət yürütmək hüququnu qoruyur.

*

H.Hacıyevin Qarabağ məsələsinə dair verdiyi cavablar Azərbaycanın post-münaqişə dövründə yürütməkdə olduğu "diplomatik normalizasiya və hüquqi legitimasiya" xəttinin konturlarını aydın şəkildə göstərir. Onun "müharibə başa çatıb, sərhədlərdə sabitlik var, faktiki sülh mövcuddur" sözləri Azərbaycanın hərbi qələbəsinin diplomatik üstünlüyə çevrildiyinin nümayişi üçün strateji olaraq səsləndirilir.

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, Bakı yalnız faktlara əsaslanan "sülh reallığını" təqdim etmir, eyni zamanda, bu reallığın hüquqi və beynəlxalq müstəvidə tanınması üçün konkret addımlar atılmasını tələb edir. H.Hacıyevin Ermənistan konstitusiyasında yer alan ərazi iddialarının aradan qaldırılmasını "sonuncu addım" adlandırması, əslində, Ermənistanın hüquqi sənədlərində sülhə zidd məqamların dəyişdirilməsini Bakı üçün ilkin şərt kimi müəyyən etdiyini göstərir. O, eyni zamanda, qeyd edir ki, Qarabağ artıq müzakirə mövzusu deyil və "erməni silahlı birləşmələri tamamilə çıxarılıb". Burada Azərbaycanın məsələni yekunlaşdırmaq istədiyini göstərən diplomatik siqnal var. Lakin Ermənistan konstitusiyasında dəyişikliklər aparılmadan, prosesin tam bağlanmadığı da açıqca bəyan edilir. Yəni, faktiki sülh var, lakin "de-yure" sülh üçün hələlik hüquqi maneələr mövcuddur.

Azərbaycan bu məqamda beynəlxalq hüquqa və normativ sənədlərə əsaslanaraq, regionda sabitlik və sülhün institusional zəminini yaratmaq istəyir. Bakı artıq yalnız "ərazi bütövlüyü uğrunda mübarizə aparan ölkə" deyil, həm də regionda sülhün şərtlərini müəyyən edən aktor kimi çıxış edir.

*

H.Hacıyevin müsahibəsində xüsusi yer ayrılan mövzulardan biri də Azərbaycan–Türkiyə münasibətləridir. Onun Prezident Rəcəb Tayyib Ərdoğanı "sabitləşdirici lider", Türkiyəni isə "qlobal aktor" kimi təqdim etməsi Bakı–Ankara əlaqələrinin real geosiyasi maraqlara vəhdət təşkil etdiyini göstərir. Azərbaycan diplomatiyasında "bir millət, iki dövlət" ifadəsi uzun illərdir mədəni və siyasi paradiqma kimi istifadə olunur. İndi bu münasibət strateji sinxronluq səviyyəsinə yüksəlib. İki ölkənin yalnız siyasi ritorikada deyil, faktiki siyasət, diplomatik təşəbbüslər, təhlükəsizlik konsepsiyaları və beynəlxalq platformalarda da bərabər mövqedə çıxış edir.

Hacıyevin Türkiyənin regional və qlobal miqyasda oynadığı rolu "pozitiv və konstruktiv" adlandırması Ankaranın artan təsir imkanlarının Bakı tərəfindən milli maraqların qorunması və genişləndirilməsi üçün rıçaq kimi dəyərləndirildiyini göstərir.

*

Azərbaycan Prezidentinin köməkçisinin müsahibəsində Azərbaycan diplomatiyasının Rusiya–Ukrayna müharibəsi ilə bağlı mövqeyi həm etik, həm də praqmatik əsaslara söykənir. Bakı nə Rusiya ilə qarşıdurmaya girir, nə də Qərbin gözündə passiv qalır. Bu siyasət neytrallıqla humanitar məsuliyyətin sintezidir.

Neytral mövqe və hərbi iştirakdan yayınmaq Bakının gələcəkdə tərəflər arasında vasitəçi və ya dialoq təşəbbüskarı kimi çıxış etməsinə zəmin yaradır. Eyni zamanda, Rusiya ilə sərhəd və ticarət əlaqələrini qoruyaraq Qərblə enerji və diplomatik tərəfdaşlıq imkanlarını genişləndirmək balansın qorunmasında əsas şərtdir. Bütün bunların fonunda Azərbaycan modelini "hərbi bloklardan kənar, lakin diplomatik cəhətdən aktiv və humanist mövqeyə malik ölkə" kimi xarakterizə etmək olar.

Ən mühüm strateji element isə "ərazi bütövlüyü prinsipinə sadiqlik" tezisinin açıq şəkildə ifadə olunmasıdır. H.Hacıyevin bu vurğusu Azərbaycan diplomatiyasının doğma tarixindən doğan beynəlxalq hüquqa bağlılıq mesajıdır. Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi təcrübəsi fonunda Bakı üçün bu prinsip fundamental xarakter daşıyır və universal tətbiqini dəstəkləmək, əslində öz legitimliyini qorumaq deməkdir.

Dövlətin bu siyasəti bir neçə strateji məqsədə xidmət edir. Azərbaycan həm regionda sabitliyi qoruyan məsuliyyətli qonşu, həm də beynəlxalq hüquqa sadiq müasir dövlət imici yaradır. Neytral mövqe və hərbi iştirakdan yayınmaq Bakının gələcəkdə tərəflər arasında vasitəçi və ya dialoq təşəbbüskarı kimi çıxış etməsinə zəmin yaradır.

Bütün bunların fonunda Azərbaycan modelini "hərbi bloklardan kənar, lakin diplomatik cəhətdən aktiv və humanist mövqeyə malik ölkə" kimi xarakterizə etmək olar. Məhz bu model dəyişkən qlobal nizamda çox az sayda ölkənin bacardığı realist neytrallıq və prinsipial hüquqi mövqe sintezini əks etdirir.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbə müdiri Hikmət Hacıyevin Slovakiya mətbuatına verdiyi müsahibə Azərbaycanın regional və qlobal siyasətdə tutduğu mövqeyin çoxşaxəli və adaptiv olduğunu nümayiş etdirir. Son olaraq qeyd edilməlidir ki, bu siyasətin təməlində real siyasətə söykənən çevik enerji diplomatiyası, təhlükəsizlikdə balanslı mövqe və yeni geosiyasi arxitekturaya uyğunlaşma bacarığı dayanır. Azərbaycan artıq yalnız bölgə ölkəsi deyil, o, Şərqlə Qərb arasında "körpü" yox, "oyunçudur".

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Fransızlar özləri də Makrondan narazıdırlar

## *Rəy sorğusu bunu bir daha təsdiqlədi*

**Fransa prezidenti Emmanuel Makronun və baş nazir Fransua Bayrunun reytinqi ölkə daxilində sürətlə aşağı düşməkdədir. Əhali arasında hökumətə etimadsızlıq əsasən sosial-iqtisadi problemlər, bahalaşma və miqrasiya siyasəti ilə bağlı narazılıqlarla izah olunur. Xüsusilə böyük şəhərlərdə və orta təbəqə arasında Makronun siyasətinə qarşı dərin narazılıq müşahidə edilir. Bayrunun başçılıq etdiyi hökumətin parlamentdə sabit çoxluğa malik olmaması da ictimai etimadın azalmasına təsir göstərir.**

Son dövrlər həyata keçirilən bəzi sosioloji sorğular hər iki siyasətçinin reytinqinin ilin əvvəlindən bəri ən aşağı səviyyəyə endiyini göstərir. Fransa Rəy və Marketinq Tədqiqatları İnstitutunun (IFOP) "Journal Dimanche"nin sifarişi ilə həyata keçirdiyi sorğunun nəticələri bu baxımdan istisnalıq təşkil etməyib. Bəri başdan deyək ki, nəticələr baş nazir Bayru və prezident Makron üçün ürəkaçan deyil. Sorğunun nəticələrinə görə fransızların 80 faizi F.Bayrunun baş nazir vəzifəsinə təyin edilməsindən narazıdır. Bu, onun 2024-cü ilin dekabrında təyinatından bəri ən aşağı səviyyədir və sələfləri ilə müqayisədə reytinqinin çox aşağı olduğu bildirilir.

Baş nazirin reytinqinin aşağı olmasının səbəbləri barədə onu qeyd etmək lazımdır ki, tənqidçilər onun yaşının çox olduğunu və günün çağırışlarına çevik reaksiya verə bilmədiyini əsas gətirirlər. Qeyd edək ki, F.Bayru 1951-ci il mayın 25-də dünyaya gəlib, hazırda 75 yaşın içindədir. Baş nazirin yaşı ictimai rəyin formalaşmasında əsas amillərdən biri kimi göstərilir. Cəmiyyətin xüsusən gənc və şəhərdə yaşayan təbəqəsi bu yaşda olan siyasətçinin texnoloji inkişaf, ekoloji böhran, yaşıl enerji kimi aktual məsələlərə adaptasiyasının çətin hesab edirlər. Bundan başqa, yaşlı liderin dəyişən siyasi dinamikaya uyğun çevik komanda formalaşdırmaq bacarığı da daim tənqid mövzusudur. Sosial şəbəkələrdə və mediada "keçən əsrin siyasətçisi" kimi təqdim olunması isə Bayruya olan ictimai etimadı zəiflədir.

Baş nazirdən narazılığın digər səbəblərindən biri onun təyinatının şəffaflıqdan uzaq olması və xalqla məsləhətləşməyə əsaslanmamasıdır. Bayrunun siyasi karyerası uzun olsa da, geniş ictimai dəstəyə malik olmadığı vurğulanır. Onun Makronun tərəfdaşı kimi qəbul edilməsi yeni baş nazirin xalqı deyil, prezidentin maraqlarını təmsil etdiyi fikrini gücləndirir. Xüsusilə solçu seçicilər bu təyinatın parlament seçkilərindəki nəticələri nəzərə almadan verildiyini bildirirlər. Bayrunun iqtisadi və sosial problemlərlə bağlı proqramının aydın olmaması da Fransa cəmiyyətində narahatlıq doğurur. Gənclər arasında onunla bağlı ümidsizlik daha güclüdür. Xüsusən işsizlik, təhsil və mənzil problemlərinin həllində ona etibar azdır. Mediada isə Bayrunun əvvəllər korrupsiya ittihamları ilə üzləşməsi barədə xatırlatmalar ictimai rəydə mənfi rəy yaradır. Təyinatın Makronun siyasi manipulyasiyası kimi qiymətləndirilməsi hökumətə olan ümumi etimadı daha da zəiflədir. Ümumilikdə, fransız cəmiyyətində Bayrunun baş nazirliyi böhrandan çıxış yolu deyil, siyasi dalanın davam etməsi kimi nəzərdən keçirilir.

*

E.Makronun populyarlıq reytinqi də may ayından bəri iki pillə aşağı düşüb. Sorğuda iştirak edən fransızların 77 faizi Makronun fəaliyyətindən narazı, 45 faizi isə çox narazıdır. Onun populyarlıq reytinqi xüsusilə gənclər arasında aşağı düşüb. Yəni, 18-24 yaşlı gənclər arasında səkkiz ballıq azalma müşahidə olunub.

Fransa prezidentinin ictimai reytinqində müşahidə olunan eniş onun siyasi kursuna və idarəetmə metoduna qarşı artan narazılığın göstəricisi kimi şərh oluna bilər. Xüsusi diqqətçəkən məqam isə Makronun populyarlığının ən çox gənc fransızlar arasında aşağı düşməsidir. Bu yaş qrupunda səkkiz ballıq eniş onun gənc nəslin gözləntilərini qarşılaya bilmədiyini göstərir. Ekspertlər bu durumu sosial bərabərsizlik, təhsil imkanlarının məhdudlaşması, işsizlik və artan inflyasiya ilə izah edirlər. Eyni zamanda, Makronun gənclərlə birbaşa təmasdan yayınması, onlarla açıq dialoqa girməməsi də etimadın azalmasına səbəb olub. Gənclər arasında yaşanan ruh düşkünlüyü, əslində, Fransa cəmiyyətində mövcud olan ümumi siyasi inamsızlığın gənc nəslə də sirayət etdiyini göstərir. Populyar görünmək üçün apardığı bəzi islahatlar, məsələn, pensiya yaşının artırılması, əksinə, geniş etirazlara səbəb olub. Bu kontekstdə Makronun nəinki sosial bazası zəifləyib, həm də onun "yenilənmiş Fransa" iddiası getdikcə daha az inandırıcı görünməyə başlayıb. Gənclərin siyasətdən uzaqlaşması və radikal mövqelərə meyl etməsi isə ölkə üçün yeni sosial böhranların xəbərçisidir.



E.Makronun xarici siyasəti də son illər ciddi uğursuzluqlarla yadda qalıb. O, həm Afrika, həm Yaxın Şərq, həm də Cənubi Qafqaz istiqamətində Fransa diplomatiyasını ifrat birtərəfli və reallıqdan uzaq istiqamətə yönəldib. Xüsusilə Azərbaycanla bağlı ədalətsiz və aşkar qərəzli mövqeyi rəsmi Parisin regiondakı nüfuzuna ağır zərbə vurub. Fransanın Ermənistanı açıq şəkildə dəstəkləməsi, eyni zamanda, Azərbaycan əleyhinə əsassız ittihamlarla çıxış etməsi onun bölgədə təsir imkanlarını sıfıra endirib. Paris bu siyasətlə nə Cənubi Qafqazda söz sahibi oldu, nə də beynəlxalq nüfuzuna artıra bildi. Makronun bu istiqamətdəki ritorikası Fransa diplomatiyasını tənqid obyektinə çevirib. Eyni zamanda, Afrika ölkələrinin ard-arda Fransa əleyhinə mövqe tutması, hərbi bazaların çıxarılması və diplomatik münasibətlərin zəifləməsi Parisin qitədəki postkolonial təsirini sürətlə itirdiyini göstərir. Sahel bölgəsində mövqelərin zəifləməsi Makronun "qlobal oyunçu" iddialarını alt-üst edib. Ukrayna müharibəsi fonunda balanslı siyasət apara bilməməsi, eləcə də NATO daxilindəki çəkişmələrdə ziddiyyətli mövqe tutması Fransanın geosiyasi çəkisini zəiflədib. Hazırda Makronun xarici siyasəti həm regionlarda uğursuz sayılır, həm də daxildə ciddi ictimai narazılıqla qarşılanır. Bütün bunlar isə keçirilən sosioloji sorğularda öz əksini tapır.

**Mövzu üzrə fikirlərini XQ ilə bölüşən politoloq Ramiyə Məmmədova** bildirdi ki, E.Makron 2017-ci ildə prezident seçiləndən bir il sonra ölkədə "Sarı jiletlilər" hərəkatı başlayıb. Onun sözlərinə görə, Makron seçkiqabağı dövrdə Fransa cəmiyyətinin üzləşdiyi əsas sosial problemlərin həllini vəd etmişdi: "Amma onları nəinki həll edə bilmədi, əksinə, yeniləri baş qaldırdı. Bunun nəticəsində cəmiyyətdə onun mövqeləri laxlamağa başladı. Makronun xarici siyasətinin uğursuz olması da onun reytinqinin aşağı düşməsinin əsas səbəblərindən biridir. O, olduqca ziddiyyətli xarici siyasət yürüdən dövlət başçısıdır. Hazırda Makron ikinci prezidentlik müddətindədir. Biz onun ikinci dönəmdə də bir sıra qalmaqallarla üzləşməsinin şahidiyik. Onun yersiz çıxışları və atdığı müəyyən addımlar, bəzi xarici dövlətlərə, o cümlədən Azərbaycana qərəzli münasibəti, vəziyyəti süni şəkildə gərginləşdirməsi bir faktdır. Halbuki, Makronun hakimiyyətə gəlişinədək Azərbaycanla Fransa arasında yaxşı münasibətlər olub. Fransa hər zaman ermənipərəst siyasət yürütsə də, əvvəlki dövlət başçıları Bakı və İrəvan arasında balans yaratmağa çalışırdılar. Makron isə birmənalı şəkildə ermənipərəst mövqe tutdu. Nəticədə Azərbaycanla münasibətlər korlandı".

Siyasi ekspert bildirdi ki, Makron Avropa İttifaqının siyasətinin formalaşdırılmasında mühüm rol oynamaq istəyir, amma bu zaman ittifaqla ABŞ-ın münasibətlərinin korlanmasına səbəb olur: "O, ABŞ-ı Aİ-yə dəstək verməməkdə suçlayır. Aİ-nin NATO-dan ayrı, öz ordusunun yaradılması təklifi ilə çıxış edir. Makron NATO-nun üzv dövlətlər üzrə xərclərinin artırılması məsələsində də Vaşinqtonla razılaşmır. Ağ ev bildirir ki, o, alyansın artan xərclərini təkbaşına qarşılaya bilməz. Digər üzv ölkələr bununla razılaşır, təkcə Fransa prezidenti buna qarşı çıxır. Amma Trampın təzyiqləri nəticəsində Aİ ABŞ-ın təkliflərini qəbul etdi. Nəticədə ittifaq üzvləri NATO-nun xərclərinin 5 faiz artırılmasına razılaşdılar. Fransa Aİ-nin əsas ölkəsi rolunu öz üzərinə götürməyə iddialı olsa da buna tam nail ola bilmədi. Ümumiyyətlə, Makronun yürütdüyü xarici siyasət onun və hökumətinin reytinqinin düşməsinin əsas səbəbləri sırasındadır".

Müsahibimiz Makronun 2 il sonra hakimiyyətdən gedəcəyini vurğulayaraq seçkilərdə onun təsisçisi və sədri olduğu "İrəli, Respublika!" partiyasının təmsil edən namizədinin seçilməsinin mümkünsüzlüyünü vurğuladı: "Makronun nəinki özünün, onun baş nazir təyin etdiyi Bayrunun, hökumət üzvlərinin də nüfuzu kəskin şəkildə aşağı düşüb. Makronun sol düşərgədən olan şəxsi deyil, sağçı-liberal dünyagörüşlü birini baş nazir vəzifəsinə irəli sürməsi onun daha bir səhvi idi. Nəticədə Fransada prezidentlə baş nazirin siyasəti üst-üstə düşməyə başladı. Əgər onların siyasəti fərqli olsaydı, populyarlıq səviyyəsi bu qədər aşağı olmazdı. Sorğu göstərir ki, Makron və Bayru daha çox gənclər arasında nüfuzlarını itirirlər. Bu gün Fransada gənclər əhalinin 25-27 faizini təşkil edirlər. Belə böyük kütlə arasında Makrondan narazılıq və inamsızlıq olması onun vaxtından əvvəl prezidentlikdən getməsinə də səbəb ola bilər".

***Səxavət HƏMİD***
***XQ***

**Konstitusiya və Suverenlik İli –2025**

# Müstəqilliyin bərpası və suverenliyin təmin edilməsi tarixi uğurdur

(əvvəli 1-ci səhifədə)

Müstəqilliyin ilk dövründə ölkə idarəolunmaz vəziyyətdə idi. Ermənistanın genişlənən işğalçı siyasəti nəticəsində torpaqlarımız davamlı olaraq itirilirdi. 1992-ci ilin mayında Şuşa və Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı nəticəsində, demək olar ki, Dağlıq Qarabağ ilə Ermənistan arasında birbaşa əlaqə yarandı. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz nicatını ölkəmizdən ayrı düşmüş Naxçıvanda xilaskarlıq və milli dövlət quruculuğunu uğurla gerçəkləşdirən ümummilli lider Heydər Əliyevi ölkədə hakimiyyətə dəvət etdi. Xalq öz xilasını və təminatlı gələcəyini yalnız dünya miqyaslı siyasət və dövlət xadimi Heydər Əliyevin dərin zəkasında və yenilməz iradəsində görürdü.

Məhz belə bir şəraitdə, 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı.

Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı.

Yeni Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapıb. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Prezident Heydər Əliyevin 1 noyabr 1996-cı il tarixli fərmanı ilə hər il noyabrın 12-sinin ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilməsi qərara alındı.

Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində sonrakı dövrdə milli dövlətçilik ideyası sürətlə gerçəkləşdirildi, müstəqil Azərbaycan dövləti möhkəmləndirildi. Dövlətimiz dahi liderinin rəhbərliyi ilə yeni yüksək inkişaf mərhələsinə qədəm qoydu. Dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən irimiqyaslı islahatlar həyata keçirildi.

Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyənləşdirilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi.

Ulu öndər yaxşı bilirdi ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir. Odur ki, böyük rəhbər xalqımıza tövsiyə edirdi: “Hər bir şəxs Konstitusiyaya və qanunlara əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir. Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!”.




Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur.

Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Konstitusiyanın 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində bu müddətdə təsbit edilən prinsiplər tam şəkildə təmin olunub.

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu nailiyyətlərin davam etdirilməsi və konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilib. Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində, 2009-cu il martın 18-də isə 25 maddəyə əlavə və dəyişikliklər edilib. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının gücləndirilməsi, həmçinin vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlir.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlib. Beləliklə, Əsas Qanunumuz daha da təkmilləşdirilməklə yeni dövrün tələblərinə uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması dövlətçilik tariximizin öyrənilməsi, eyni zamanda, postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin böyük əhəmiyyət kəsb etməsi, qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini daha da ön plana çıxarmaq baxımından əvəzsiz rol oynayır.

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan etməsi Azərbaycanın dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlıqlarının təmin olunmasına dair öhdəlikləri vurğulamaq məqsədi daşıyır. Bu qərar, həmçinin milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır. Ötən dövrdə olduğu kimi, il ərzində həyata keçiriləcək genişmiqyaslı islahatlar da Azərbaycan xalqının hüquqi dövlət quruculuğu yolunda irəliləməsinə zəmin yaradacaq.

Müstəqil Azərbaycan Prokurorluğunun hüquqi əsasları da məhz 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyada təsbit olunmuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycan Prokurorluğunun formalaşmasında rolu əvəzedilməz olmuşdur. Məhz Ulu öndərin təşəbbüsü ilə prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən norma Konstitusiyaya daxil edilməklə prokurorluq orqanlarının dövlət təsisatları içərisində yeri müəyyənləşdirilib.

Ulu öndərin tapşırıqlarına müvafiq olaraq 2002-ci ildə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərə əsasən prokurorluq orqanlarına qanunvericilik təşəbbüsü hüququ verilmiş, məhz onun rəhbərlik etdiyi dövrdə prokurorluğun beynəlxalq və milli standartları özündə əks etdirən bir qurum kimi formalaşması üçün bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Qəbul edilmiş qanunvericilik aktlarında prokurorluq orqanlarının əsas fəaliyyət istiqaməti və prinsipləri ətraflı şəkildə təsbit edilmişdir.

Dövlət müstəqilliyimizin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində digər dövlət orqanları ilə yanaşı, prokurorluğun da xüsusi rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı və SSRİ Prokurorluğunun tərkib hissəsi kimi uzunmüddətli və mürəkkəb bir inkişaf yolu keçən Azərbaycanın milli prokurorluq orqanları yalnız ölkəmiz öz dövlət müstəqilliyini qazandıqdan sonra ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində tamamilə yenidən qurulmuş, normal fəaliyyəti üçün mütərəqqi normativ-hüquqi bazası, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil təsisata çevrilmişdir.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi həm də hüquqi islahatların daha sistemli həyata keçirilməsi və vətəndaşların hüquqi biliklərinin artırılması məqsədi daşıyır. Bu təşəbbüs hüquqi təhsil və maarifləndirməni gücləndirməklə vətəndaşların konstitusiya hüquqları ilə bağlı məlumatlılığını artırır. Hüquqi maarifləndirmə cəmiyyətin hüquqi şüurunun formalaşmasında mühüm rol oynayır. Konstitusiya dəyərlərinin təbliği hüquq dövlətinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlər hüquqi biliklərin genişlənməsinə və qanunun aliliyinin möhkəmləndirilməsinə xidmət edir. "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi gələcək hüquqi islahatların planlaşdırılması və həyata keçirilməsi üçün mühüm zəmin yaradır. Dövlət suverenliyinin qorunması və hüquq sisteminin modernləşdirilməsi Azərbaycan dövlətinin inkişaf strategiyasının əsas istiqamətlərindən biri olaraq qalmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə suveren və bütöv Azərbaycanı yeni dövrdə inkişafının mühüm mərhələsi gözləyir. Dövlətimiz və xalqımız tarixi nailiyyətlərə imza atmaqda davam edəcək.

***Günel BAYRAMOVA,***
***Bakı şəhəri Nizami rayon prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas***

# Zərərçəkmiş şəxslər təqsirkarları ittiham edirlər

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyulun 8-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra Z.Ağayev bildirib ki, təqsirləndirilən Ruben Vardanyanın ötən iclasda verdiyi vəsatətlə bağlı cinayət işinin materialları nəzərdən keçirilib. Qeyd edib ki, məhkəmə onun və müdafiəçisinin verdiyi bütün vəsatətləri qiymətləndirib.

Ardınca Ruben Vardanyan məhkəməyə müraciət edib. Bildirib ki, daha əvvəl məhkəmə kollegiyası iclas protokolları ilə tanış olmaq üçün ona və müdafiəçisinə şərait yaradıb. Hazırda isə məhkəmə hazırlıq iclasında qəbul edilmiş və protokollarda öz əksini tapmış qərarlarla tanış olmaq istəyirlər. Bundan başqa, müdafiə tərəfi müxtəlif tarixlərdə keçirilən iclaslarda verdikləri vəsatətlərin təmin olunmasına dair qərarlardan çıxarışın da onlara təqdim olunmasını xahiş edib.

Vəkil Avraam Berman təqsirləndirilən şəxsin müraciətini müdafiə edib.

İclasa sədrlik edən hakim Zeynal Ağayev deyib ki, indiyədək təqsirləndirilən şəxs və onun müdafiəçisinə istədikləri sənədlərlə tanış olmaq üçün məhkəmə tərəfindən şərait yaradılıb, əvvəl olduğu kimi, yenə də şərait yaradılacaq.

Bundan sonra Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət hadisələri zamanı zərər çəkənlər, habelə zərərçəkmişlərin hüquqi varisləri ifadə veriblər.

Zərərçəkmiş Elməddin Lətifovun hüquqi varisi qismində ifadə verən Sabir Lətifov deyib ki, onun qardaşı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin törətdiyi təxribat nəticəsində həlak olub.

Zərərçəkmiş Şamil Həsənovun hüquqi varisi Şiraslan Həsənov övladının Ağdam rayonu istiqamətində düşmən tərəfindən açılmış atəş nəticəsində həyatını itirdiyini bildirib.

Zərərçəkmiş Şamxal Həmidovun hüquqi varisi qismində tanınaraq dindirilən Asif Şükürov qeyd edib ki, Ş.Həmidov Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində həlak olub.

Zərərçəkmiş Bəhruz Rüstəmlinin hüquqi varisi Mövlam Rüstəmli ifadəsində qardaşının Xocalı rayonu istiqamətində düşmənin açdığı atəş nəticəsində qəlpə yaralarından öldüyünü bildirib.

Zərərçəkmiş Kamal Qasımovun hüquqi varisi Sevinc Qasımova oğlunun Xankəndi şəhəri istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həyatını itirdiyini söyləyib.

Zərərçəkmiş Pərviz Hünbətov ifadəsində deyib ki, Ağdam rayonunun Xanabad kəndi ərazisində düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralanıb. Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş şəxs diqqətə çatdırıb ki, hadisə zamanı Sadiq Qəhrəmanov həlak olub, Ramin Osmanov və Aqil Quliyev isə müxtəlif növ bədən xəsarətləri alıblar.

Məhkəmədə ifadə verən Elmir Qasımov isə dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında qeyd edib ki, o, Şuşa istiqamətində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin yanına düşərək partlaması nəticəsində sağ çiyin, sol ayaq, baş və bədənin müxtəlif nahiyələrindən çoxsaylı qəlpə xəsarətləri alıb.

Məhəmməd Mahmudov ifadəsində Xocavənd rayonu ərazisindən açılmış atəş nəticəsində kürəyindən xəsarət aldığını vurğulayıb.

Zərərçəkmiş Vəli Balabəyli ifadəsində Ağdərə rayonunun Canyataq kəndi istiqamətində atılmış artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını deyib. O, dövlət ittihamçısı Nəsir Bayramovun suallarını cavablandırarkən hadisə zamanı yanında olan daha iki nəfərin yaralandığını söyləyib.

Məhkəmədə ifadə verən Məhəmməd Kərimov isə Xocalı istiqamətində düşmənin snayperdən açdığı atəş nəticəsində boğaz nahiyəsindən yaralandığını, bir neçə şəxsin isə həlak olduğunu bildirib. Baş prokurorun böyük köməkçisi Vüsal ƏIiyevin sualına cavabında diqqətə çatdırıb ki, həmin vaxt düşmən ərazilərimizi iriçaplı silahlarla atəşə tutub.

Zərərçəkmiş Namiq Atakişiyev Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında vurğulayıb ki, o, Ağdam istiqamətində atılmış mərminin yaxınlığına düşüb partlaması nəticəsində xəsarət alıb.

Zərərçəkmiş şəxs Oruc Məmmədov Xocavənd rayonu ərazisində atılan artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Digər zərərçəkmiş Amin Cavadov isə ifadəsində qeyd edib ki, Ağdərə rayonunun Canyataq kəndi ərazisində düşmən tərəfindən atılan artilleriya mərmisinin içərisində olduğu maşının üzərinə düşərək partlaması nəticəsində xəsarət alıb. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırarkən hadisə zamanı Tural Ağcabəyov və Mirpaşa Mehdizadənin həlak olduğunu, özündən başqa daha dörd nəfərin isə yaralandığını söyləyib.

Zərərçəkmiş Etibar Hüseyinli ifadəsində deyib ki, Cəbrayıl rayonunun Əmirvarlı kəndinin ərazisində yerləşən əkin sahəsində piyadaəleyhinə minanın partlaması nəticəsində xəsarətlər alıb.

Zərərçəkmiş Pərviz Qənbərov bildirib ki, Şuşa rayonunun Xəlfəli kəndində düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində o, Rəşad Əliyev və Rəhim Nəsirov müxtəlif növ bədən xəsarətləri alıblar.

Zərərçəkmiş şəxs Mərkəz Sadıqov qeyd edib ki, Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan artilleriya mərmilərindən biri onun təxminən 7-8 metr yaxınlığına düşərək partlayıb və nəticədə çoxsaylı xəsarətlər alıb.

Zərərçəkmiş şəxs Valeh İbrahimov deyib ki, düşmən tərəfindən atılmış “Faqot” tankəleyhinə idarəolunan raketin yaxınlığında partlaması nəticəsində bədəninin müxtəlif nahiyələrindən qəlpə yaraları alıb.

Araz Usubov ifadəsində Xocavənd rayon ərazisində düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində ayaqlarından və boynundan çoxsaylı qəlpə xəsarətləri aldığını diqqətə çatdırıb.

Zərərçəkmiş Etibar Səfərov Kəlbəcər rayonunun ərazisində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Orxan Kərəmli ifadəsində Ağdərə rayonu ərazisindən atılan minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını deyib.

Zərərçəkmiş Vasif Yusupov Kəlbəcər rayonunda düşmən tərəfindən açılmış artilleriya atəşi nəticəsində yaralandığını bildirib.

Etibar Baxışov isə Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan mərminin partlaması nəticəsində qəlpə xəsarəti aldığını qeyd edib.

Bəhruz Nəzərov ifadəsində bildirib ki, Zəngilan rayonunda düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində yaralanıb.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyulun 15-nə təyin olunub.

***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Texniki reqlamentlərin hazırlanması, ekspertizası, qəbulu, onlarda dəyişikliklər edilməsi qaydaları

### 1 Ümumi müddəalar

1.1. Bu Qaydalar "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 7.12-ci maddəsinə uyğun olaraq, texniki reqlamentlərin hazırlanması, ekspertizası, qəbulu, onlarda dəyişikliklər edilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **istinad edilmiş standart** – texniki reqlament ilə müəyyən edilmiş əsas tələblərin təmin edilməsi və texniki reqlamentin tətbiqi məqsədilə hazırlanmış standart;

1.2.2. **texniki reqlamentin ekspertizası** – texniki reqlament layihəsinin Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik) tərəfindən Qanunun tələblərinə uyğunluğu baxımından yoxlanılması.

1.3. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Qanunda nəzərdə tutulan mənaları ifadə edir.

1.4. Texniki reqlament üzrə məcburi tələblər malların, onlarla əlaqəli proseslərin və istehsal metodlarının təhlükəsizliyinin təmin edilməsi ilə məhdudlaşır.

1.5. Texniki reqlamentdə malların dizaynına və xarici görünüşünə dair tələblər istisna olmaqla, malların istehsal, terminologiya, simvol, qablaşdırma, etiketləşdirmə, istismar, saxlanma, daşınma, satış, məhvetmə və utilizasiya qaydalarına dair məcburi tələblər müəyyən edilə bilər.

1.6. Milli texniki reqlamentlər, habelə Azərbaycan Respublikasının ərazisində tanınmaqla tətbiq edilən beynəlxalq texniki reqlamentlər barədə məlumatlar açıqdır və Agentliyin rəsmi internet saytında yerləşdirilir.

### 2. Texniki reqlamentlərin hazırlanması

2.1. Agentlik texniki tənzimləmənin şamil olunduğu mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair texniki reqlamentlərin mərhələli şəkildə hazırlanması işini təşkil edir.

2.2. Texniki reqlamentlərin layihəsini (bundan sonra – layihə) Agentliyin müraciəti əsasında, texniki tənzimləmənin şamil olunduğu mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair dövlət siyasətini və tənzimlənməsini həyata keçirən aidiyyəti dövlət orqanları (qurumları) (bundan sonra – layihəni hazırlayan) hazırlayırlar.

2.3. Bu Qaydaların 2-ci hissəsinin müddəaları nəzərə alınmaqla, Agentlik layihəni fəaliyyət istiqamətlərinə uyğun olaraq öz təşəbbüsü ilə də hazırlaya bilər.

2.4. Layihəni hazırlayan öz təşəbbüsü ilə müvafiq sahədə texniki reqlamentlərin onun tərəfindən hazırlanmasına dair təkliflərini Agentliyə təqdim edə bilər. Agentlik layihəni hazırlayanın təklifləri daxil olduğu tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq müvafiq sahəyə texniki tənzimləmənin şamil olunub-olunmamasını və həmin sahə üzrə texniki reqlamentin və ya onun layihəsinin mövcudluğunu təhlil edir. Hüquqi və fiziki şəxslər də müvafiq sahədə texniki reqlamentlərin onlar tərəfindən hazırlanması ilə bağlı təkliflərini layihəni hazırlamalı olan aidiyyəti dövlət orqanına (qurumuna) təqdim edə bilərlər.

2.5. Bu Qaydaların 2.4-cü bəndinə uyğun olaraq müvafiq sahəyə texniki tənzimləmənin şamil olunduğu və həmin sahə üzrə texniki reqlament və ya onun layihəsinin mövcud olmadığı müəyyən edildiyi təqdirdə, Agentlik 3 (üç) iş günü müddətində həmin sahə üzrə layihənin hazırlanmasının məqsədəuyğunluğu barədə məlumatı layihəni hazırlayana təqdim edir.

2.6. Layihəni hazırlayan bu Qaydaların 2.2-ci və 2.5-ci bəndlərinə uyğun olaraq layihənin hazırlanmasının məqsədəuyğunluğu ilə bağlı məlumatı aldığı tarixdən layihəni hazırlamağa başlayır və 7 (yeddi) iş günündən gec olmayaraq layihənin hazırlanma müddəti barədə məlumatı Agentliyə təqdim edir.

2.7. Agentlik bu Qaydaların 2.4-cü bəndinə uyğun olaraq müvafiq sahəyə texniki tənzimləmənin şamil olunmadığını, yaxud həmin sahə üzrə texniki reqlamentin və ya onun layihəsinin mövcudluğunu müəyyən etdiyi təqdirdə, layihənin hazırlanmasının məqsədəuyğun hesab edilmədiyi barədə əsaslandırılmış məlumatı 3 (üç) iş günü müddətində layihəni hazırlayana təqdim edir.

2.8. Dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər müvafiq sahədə texniki reqlamentlərin qəbul edilməsi ilə bağlı Agentliyə müraciət edə bilərlər. Bu halda, Agentlik həmin müraciətin daxil olduğu tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq, müraciətdə göstərilən sahəyə texniki tənzimləmənin şamil olunub-olunmamasını və həmin sahə üzrə texniki reqlamentin və ya onun layihəsinin mövcudluğunu təhlil edir.

2.9. Bu Qaydaların 2.8-ci bəndinə uyğun olaraq aparılan təhlillər nəticəsində müvafiq sahəyə texniki tənzimləmənin şamil olunduğu və həmin sahə üzrə texniki reqlament və ya onun layihəsinin mövcud olmadığı müəyyən edildiyi təqdirdə, Agentlik 3 (üç) iş günü müddətində müvafiq sahədə texniki reqlament layihəsinin hazırlanması üçün aidiyyəti layihəni hazırlayana müraciət edir. Layihəni hazırlayan həmin müraciəti aldığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq, layihənin hazırlanma müddəti barədə məlumatı Agentliyə təqdim edir. Agentlik həmin məlumatı aldığı tarixdən 2 (iki) iş günündən gec olmayaraq, həmin layihənin hazırlanma müddəti barədə məlumatları müraciət müəllifinə təqdim edir.

2.10. Agentlik bu Qaydaların 2.8-ci bəndinə uyğun olaraq aparılan təhlillər nəticəsində müvafiq sahəyə texniki tənzimləmənin şamil olunmadığını, yaxud həmin sahə üzrə texniki reqlament və ya onun layihəsinin mövcud olduğunu müəyyən etdiyi təqdirdə, layihənin hazırlanmasının məqsədəuyğun hesab edilmədiyi barədə əsaslandırılmış məlumatı 3 (üç) iş günü müddətində müraciət müəllifinə təqdim edir.

2.11. Layihənin hazırlanmasına sərf olunan müddət 4 (dörd) aydan çox ola bilməz.

2.12. Layihəni hazırlayan layihəni struktur və məzmun baxımından Qanunun 8-ci maddəsinin tələblərini nəzərə almaqla hazırlayır.

2.13. Layihəni hazırlayan aşağıdakı işləri yerinə yetirir:

2.13.1. texniki reqlamentin ticarətdə lüzumsuz maneələrə səbəb olma ehtimalını təhlil edir;

2.13.2. Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərini, regional, dövlətlərarası və xarici dövlətlərin texniki reqlamentlərini, standartlarını, beynəlxalq standartları və ya onun müvafiq hissələrini, texniki tənzimləmə obyektlərinə olan tələbləri müəyyənləşdirən digər normativ sənədləri təhlil edir;

2.13.3. layihənin razılaşdırılmalı olduğu aidiyyəti dövlət orqanlarını (qurumlarını) müəyyən edir;

2.13.4. müvafiq layihənin hazırlanması zərurətinin əsaslandırılmasını tərtib edir;

2.13.5. malı, onunla əlaqəli prosesi və istehsal metodunu təsvir edir;

2.13.6. texniki reqlamentin əsas tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə istinad edilmiş standartların siyahısını tərtib edir;

2.13.7. texniki reqlamentlə müəyyən olunan əsas tələblərin siyahısını tərtib edir;

2.13.8. layihəni hazırlayan şəxslərin siyahısını tərtib edir.

2.14. Layihəni hazırlayan texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin yerinə yetirilməsini təmin edən standartın standartlaşdırma üzrə dövlət fondunda olmadığını müəyyən etdiyi təqdirdə, bu barədə məlumatı 2 (iki) iş günü müddətində Agentliyə təqdim edir. Bu zaman layihənin hazırlanması ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət layihənin hazırlanması müddətinə daxil edilmir.

2.15. Agentlik bu Qaydaların 2.14-cü bəndinə uyğun olaraq məlumatı aldığı tarixdən 1 (bir) iş günü müddətində texniki reqlamentlə müəyyən edilmiş əsas tələblərin yerinə yetirilməsi və texniki reqlamentin tətbiqi üçün standartın qəbulu məqsədilə milli standartlaşdırma qurumuna müraciət edir və bu barədə layihəni hazırlayana məlumat verir. Layihəni hazırlayan texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin yerinə yetirilməsini təmin edən standartın işlənib hazırlanması məqsədilə "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan tədbirləri görür. Milli standartlaşdırma qurumu həmin standartı "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini nəzərə almaqla qəbul edir, Standartlaşdırma üzrə normativ sənədlərin dövlət reyestrinə və dövlət fonduna daxil edib bu barədə məlumatı həmin gün Agentliyə təqdim edir.

2.16. Agentlik bu Qaydaların 2.15-ci bəndində nəzərdə tutulan məlumatı aldığı gün həmin standartı istinad edilmiş standartların siyahısına daxil edir, özünün rəsmi internet saytında yerləşdirilməsini təmin edir və bu barədə məlumatı həmin gün layihəni hazırlayana təqdim edir. Bu zaman layihənin hazırlanması ilə bağlı müddətin axımı bərpa olunur.

2.17. Agentlik bu Qaydaların 2.14-cü və 2.16-cı bəndlərinə uyğun olaraq layihənin hazırlanması ilə bağlı müddət axımının dayandırılması və bərpası barədə müraciət müəllifinə həmin gün məlumat verir.

2.18. Layihəni hazırlayan layihəni bu Qaydaların 2.13-cü bəndində nəzərdə tutulmuş sənədlərlə və məlumatlarla birlikdə Agentliyə təqdim edir. Agentlik, 5 (beş) iş günündən gec olmayaraq, təqdim edilmiş sənədlərin və məlumatların tamlığını təhlil edir. Çatışmazlıqlar aşkar edildikdə, Agentlik onların aradan qaldırılması barədə məlumatı layihəni hazırlayana təqdim edir. Layihəni hazırlayan məlumatı aldığı tarixdən 15 (on beş) iş günü müddətində həmin çatışmazlıqları aradan qaldırmalı və bu barədə məlumatı Agentliyə təqdim etməlidir.

2.19. Bu Qaydaların 2.18-ci bəndinə uyğun olaraq aparılan təhlillər nəticəsində layihədə çatışmazlıq aşkar edilmədikdə və ya aradan qaldırıldığı təqdirdə, layihəni hazırlayan təqdim olunmuş layihəni 2 (iki) iş günündən gec olmayaraq, bu Qaydaların 2.13.3-cü yarımbəndində qeyd olunan siyahı üzrə aidiyyəti dövlət orqanlarına (qurumlarına) razılaşdırılmaq üçün göndərir və bu barədə məlumatı Agentliyə təqdim edir.

2.20. Layihə, razılaşdırılmaq üçün göndərildikdən sonra ictimai dinləmələrin və ictimai müzakirənin keçirilməsi məqsədilə "**İctimai** iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə uyğun olaraq, Agentliyin rəsmi internet saytının xüsusi bölməsində yerləşdirilir və təqdim edilmiş rəy, irad və təkliflər baxılmaq üçün 5 (beş) iş günündən gec olmayaraq layihəni hazırlayana təqdim edilir.

2.21. Layihəni hazırlayan bu Qaydaların 2.20-ci bəndinə uyğun olaraq təqdim edilmiş rəy, irad və təklifləri 20 (iyirmi) iş günündən gec olmayaraq təhlil edir və layihənin yekun variantını hazırlayır. Layihəni hazırlayan nəzərə alınmamış rəy, irad və təkliflərlə əlaqədar müraciət müəllifinə əsaslandırılmış cavab verir.

2.22. Layihəni hazırlayan 2 (iki) iş günündən gec olmayaraq layihənin yekun variantını ekspertizadan keçirilməsi məqsədilə, nəzərə alınmamış rəy, irad və təkliflərə dair əsaslandırma ilə birlikdə Agentliyə təqdim edir.

### 3. Texniki reqlament layihəsinin ekspertizası

3.1. Agentlik təqdim edilmiş layihənin Qanunun tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə 30 (otuz) iş günü müddətində onun ekspertizasını aparır.

3.2. Layihənin ekspertizasının nəticələri qeyri-qənaətbəxş olduğu halda, layihə uyğunsuzluqların aradan qaldırılması məqsədilə layihəni hazırlayana qaytarılır. Uyğunsuzluqlar 20 (iyirmi) iş günü müddətində aradan qaldırılmalı və layihə yenidən Agentliyə təqdim edilməlidir.

3.3. Layihəni hazırlayan layihəni Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmalı və həmin Əsasnamənin 4.3-cü bəndi nəzərə alınmaqla, razılaşdırılmış layihəni Agentliyə təqdim etməlidir.

3.4. Agentlik ekspertizanın müsbət nəticələri əsasında təqdim edilmiş və aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmış layihəni 5 (beş) iş günündən gec olmayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

### 4. Texniki reqlamentlərin qəbulu

4.1. Texniki reqlamentlər Qanunun 7.1-ci maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir.

4.2. Texniki reqlamentin işarəsi TR indeksindən, bir-birindən çəp xətlə ayrılmış üçrəqəmli qeydiyyat sıra nömrəsindən, texniki reqlamentin təsdiq olunduğu dördrəqəmli ildən və AZ indeksindən ibarətdir (nümunə: TR 001/2025/AZ).

4.3. Texniki reqlamentin sıra nömrəsini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyənləşdirir.

4.4. Yerli və xarici təsərrüfat subyektlərinə öz mallarını, onlarla əlaqəli prosesləri və istehsal metodlarını qəbul edilmiş texniki reqlamentlərin tələblərinə uyğunlaşdırmaq imkanının yaradılması məqsədilə texniki reqlamentlər qəbul edilərkən onların qüvvəyə minməsi üçün 6 (altı) ay müddət müəyyən edilir. Qanunun 2-ci maddəsində qeyd olunan tələblərin təmin edilməsi məqsədilə, Agentliyin əsaslandırılmış müraciəti əsasında, texniki reqlamentlərin qüvvəyə minməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən daha az müddət müəyyən edilə bilər.

### 5. Texniki reqlamentlərdə dəyişiklik edilməsi

5.1. Agentlik texniki reqlamentlərin Qanunun 2-ci və 7.2–7.6-cı maddələrinin tələblərinə uyğunluğunu ildə bir dəfədən az olmayaraq təhlil edir.

5.2. Dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər müvafiq sahədə texniki reqlamentlərin təkmilləşdirilməsi və ya ləğv edilməsi ilə bağlı Agentliyə müraciət edə bilərlər. Bu halda Agentlik daxil olmuş müraciət əsasında texniki reqlamentlərin Qanunun 2-ci və 7.2–7.6-cı maddələrinin tələblərinə uyğunluğunu 15 (on beş) iş günü müddətində təhlil edir. Təhlilin nəticəsi mənfi olduğu təqdirdə, Agentlik bu barədə məlumatları 3 (üç) iş günü müddətində müraciət müəllifinə təqdim edir.

5.3. Agentlik bu Qaydaların 5.1-ci və 5.2-ci bəndlərinə uyğun olaraq apardığı təhlillər nəticəsində texniki reqlamentlərdə dəyişiklik edilməsi zərurətini, o cümlədən qəbul edilməsinə əsas olmuş halları aradan qalxmış hesab etdiyi və ya faktiki olaraq əhəmiyyətini itirmiş texniki reqlamentləri müəyyən etdiyi təqdirdə, onların təkmilləşdirilməsi və ya ləğvi ilə bağlı əsaslandırılmış müraciəti həmin texniki reqlamentləri hazırlayana və bu Qaydaların 2.13.3-cü yarımbəndinə uyğun olaraq həmin texniki reqlamentlərin qəbulunda iştirak etmiş dövlət orqanlarına (qurumlarına) göndərir.

5.4. Texniki reqlamentlərə dair dəyişiklik layihəsinin hazırlanması, ekspertizası və qəbulu bu Qaydaların 2–4-cü hissələrinin tələblərinə uyğun həyata keçirilir. Normativ hüquqi aktların qəbul edilməsi ilə əlaqədar uyğunlaşdırma məqsədilə texniki reqlamentlərdə dəyişiklik edilməsi bu Qaydaların 2-ci və 3-cü hissələrinin tələbləri nəzərə alınmadan həyata keçirilir.

5.5. Dövlət orqanları (qurumları) bu Qaydaların 5.3-cü bəndinə uyğun olaraq texniki reqlamentlərin ləğvinə dair məlumatı aldığı tarixdən 15 (on beş) iş günü müddətində məsələ ilə bağlı öz rəy, irad və təkliflərini Agentliyə təqdim edirlər. Agentlik təqdim edilmiş rəy, irad və təklifləri 15 (on beş) iş günü müddətində təhlil edir və nəzərə alınmamış rəy, irad və təkliflərlə əlaqədar həmin dövlət orqanlarına (qurumlarına) əsaslandırılmış cavab təqdim edir.

5.6. Agentlik bu Qaydaların 5.5-ci bəndinə uyğun olaraq aparılan təhlillər nəticəsində texniki reqlamentlərin ləğvi qənaətinə gəldiyi təqdirdə, 10 (on) iş günü müddətində texniki reqlamentlərin ləğvi ilə bağlı layihəni hazırlayır və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

5.7. Dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər tərəfindən müvafiq sahədə texniki reqlamentlərin ləğv edilməsi ilə bağlı qaldırılan məsələyə bu Qaydaların 5.3-cü, 5.5-ci və 5.6-cı bəndlərinə uyğun olaraq baxıldıqdan sonra, Agentlik baxılmanın nəticəsi barədə məlumatı 3 (üç) iş günündən gec olmayaraq müraciət müəllifinə təqdim edir.

5.8. Texniki reqlamentlərin ləğv edilməsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

5.9. Agentlik texniki reqlamentlərdə dəyişiklik edilməsi və ya onların ləğv edilməsi ilə bağlı məlumatları 5 (beş) iş günü müddətində özünün rəsmi internet saytında dərc edir.

5.10. Ləğv edilmiş texniki reqlamentlərin əhatə etdiyi mallara, onlarla əlaqəli proseslərə və ya istehsal metodlarına dair yeni texniki reqlament qəbul olunduqda, ona ləğv edilmiş texniki reqlamentin sıra nömrəsi ilə eyni nömrə verilir.

### 6. Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin texniki reqlamentlərinin qəbul edilməsi

6.1. Müvafiq sahədə texniki reqlamentlər mövcud olmadıqda, dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin texniki reqlamentlərinin, yəni mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair məcburi tələbləri müəyyən edən beynəlxalq normativ sənədlərin (bundan sonra – beynəlxalq texniki reqlamentlər) milli texniki reqlamentlər kimi Azərbaycan Respublikasında tətbiq edilməsi məqsədilə Agentlik qarşısında məsələ qaldıra bilərlər.

6.2. Beynəlxalq texniki reqlamentlər Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə zidd olmadıqda, bu Qaydaların 2–4-cü hissələrinin tələbləri nəzərə alınmaqla, milli texniki reqlament kimi qəbul edilərək Azərbaycan Respublikasının ərazisində tətbiq edilə bilər.

6.3. Qanunun 10.1-ci maddəsinə uyğun olaraq müvafiq sahə üzrə milli texniki reqlament mövcud olduğu təqdirdə, beynəlxalq texniki reqlamentlər Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə zidd olmadıqda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə tanınmaqla milli texniki reqlamentlərlə yanaşı tətbiq edilə bilər.

6.4. Beynəlxalq texniki reqlamentlərin tanınması zamanı aşağıdakı meyarlar nəzərə alınır:

6.4.1. insanların həyat və sağlamlığının, dövlət maraqlarının, ətraf mühitin və əmlakın mühafizəsinin təmin edilməsi;

6.4.2. texniki tənzimləmə fəaliyyətinin məqsədlərinə nail olmaq üçün əsaslı iqlim, coğrafi və ya texnoloji amillərə uyğunluğu baxımından beynəlxalq texniki reqlamentlərin Azərbaycan Respublikasında tətbiqinin mümkünlüyü;

6.4.3. beynəlxalq texniki reqlamentlərin Azərbaycan Respublikasının ərazisinə idxal edilən mallara tətbiq edilən rejimin yerli və ya digər ölkə mənşəli oxşar mallara tətbiq edilən rejimlə eyniliyinin təmin edilməsi;

6.4.4. beynəlxalq texniki reqlamentlərin beynəlxalq ticarət üçün lüzumsuz maneələr yaratmaması və ya bu cür nəticəyə səbəb olmaması;

6.4.5. malların rəqabətqabiliyyətliliyinin artırılması;

6.4.6. istehlakçıların hüquqlarının və qanuni maraqlarının müdafiəsi;

6.4.7. təbii ehtiyatlardan və enerji resurslarından səmərəli istifadənin təmin edilməsi.

6.5. Dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər Azərbaycan Respublikasının ərazisində tətbiqi məqsədilə beynəlxalq texniki reqlamentlərin milli texniki reqlament kimi qəbul edilməsi və tanınması ilə bağlı Agentliyə müraciət edə bilərlər. Layihəni hazırlayan bu Qaydaların 2.6-cı və 2.9-cu bəndlərinə uyğun olaraq layihəni hazırlamağa başladığı tarixdən 10 (on) iş günü müddətində həmin beynəlxalq texniki reqlamentlərin autentik tərcüməsini təmin edir və layihənin birinci vərəqinin yuxarı sağ küncündə beynəlxalq texniki reqlamentin rekvizitləri qeyd olunmaqla bu barədə müvafiq qeyd aparır.

6.6. Agentlik bu Qaydaların 2-ci və 6-cı hissələrinin müddəalarını nəzərə almaqla beynəlxalq texniki reqlamentlərin milli texniki reqlamentlər kimi qəbulu və tanınması təşəbbüsü ilə çıxış edə bilər.

6.7. Agentlik bu Qaydaların 6.5-ci bəndinə uyğun olaraq təqdim edilmiş müraciət daxil olduğu tarixdən 10 (on) iş günü müddətində layihəni münasibət bildirilməsi üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərir. Aidiyyəti dövlət orqanları (qurumları) 30 (otuz) iş günü müddətində beynəlxalq texniki reqlamentlərin Azərbaycan Respublikasının ərazisində tətbiqi məsələsinə münasibət bildirməlidirlər.

6.8. Agentlik aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən daxil olmuş irad, rəy və təklifləri 20 (iyirmi) iş günü müddətində təhlil edir. Təhlil nəticəsində beynəlxalq texniki reqlamentin Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmadığı müəyyən edildiyi təqdirdə, Agentlik 3 (üç) iş günündən gec olmayaraq, həmin texniki reqlamenti və onun tanınması barədə qərar layihəsini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

6.9. Beynəlxalq texniki reqlamentlərin tanınması ilə bağlı qərarı Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir.

6.10. Bu Qaydaların 6.8-ci bəndinə uyğun olaraq aparılan təhlillər nəticəsində beynəlxalq texniki reqlamentin Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olduğu müəyyən edildiyi təqdirdə, Agentlik 3 (üç) iş günü müddətində həmin beynəlxalq texniki reqlamentin tanınması ilə bağlı məsələni qaldırmış müraciət müəlliflərinə əsaslandırılmış cavab verir.

6.11. Hüquqi və ya fiziki şəxslər texniki reqlamentin tanınmasından imtinaya dair qəbul edilmiş qərardan inzibati qaydada və ya məhkəmə qaydasında şikayət vermək hüququna malikdirlər.

# Azərbaycanın xarici siyasəti: sülhsevərlik və humanitarlıq aspekti



III MƏQALƏ

## Sülh və əməkdaşlıq: yeni məzmunda əlaqələr

Regionda sülhün təmini ilə əməkdaşlığın yeni məzmunda qarşılıqlı əlaqələndirilməsi Azərbaycanın sülhsevər xarici siyasət kursunun əsas xüsusiyyələrindən biridir. Onun praktiki reallaşdırılması kifayət qədər incə və məharətli siyasi-diplomatik fəaliyyət tələb edir. Çünki XXI əsrin çağırışları göstərir ki, liderlərin verdikləri vədlərə əməl etməsi asan deyildir. Hətta özünü ən güclü sayan dövlətlərin başçıları belə sözlərini bir sıra hallarda yerinə yetirə bilmirlər. Nümunə kimi, ABŞ prezidenti Donald Trampın İsrail–Fələstin, İsrail–İran və Rusiya–Ukrayna münaqişələri ilə əlaqədar seçkidən öncə verdiyi vədlərlə indiki reallıq arasında ciddi fərqlərin olmasını göstərə bilərik.

D.Tramp seçki kampaniyasında Rusiya-Ukrayna müharibəsini çox sürətlə dayandıracağını vəd edirdi. Hətta “2 saat” kimi ildırımsürətli həll yoluna işarə edirdi. Lakin hazırda Rusiya prezidenti cəmiyyətə müraciət edərək deyir ki, “müharibə davam edəcək”. İsrailin İran və Fələstinlə münasibətlərinin normallaşdığından bəhs etmək də imkansızdır.

Bunlar nəyi ifadə edir? Liderin zəifliyinimi? Yaxud qeyri-səmimiliyinimi? Demək çətindir. Ancaq mütləq nəzərə almaq lazımdır ki, ümumiyyətlə, XXI əsr son dərəcə mürəkkəb və turbulent dinamikaya malikdir. Burada heç nəyin və heç kimin sığortası yoxdur. Ümid qalır hər bir liderin şəxsi keyfiyyətlərinə və liderlik məharətinə!

Cənubi Qafqaz heç də dünya miqyasından az geosiyasi ziddiyyətlərə malik deyildir. Burada uzun illərdir ki, onsuz da son dərəcə mürəkkəb vəziyyət yaranmışdır. Özü də bütövlükdə geosiyasi mənzərə Azərbaycanın əleyhinə idi. Ona görə də bu cür çətin və mürəkkəb vəziyyətdə uğurlu sülhsevər siyasəti davamlı aparmaq dövrümüzün siyasi liderlik dahiliyini tələb edir. Faktiki olaraq, sülhyaratma ilə regional əməkdaşlıq arasında yeni məzmun bağlantısını praktiki olaraq formalaşdırmaq lazım gəlir. Konkret nümunələr üzrə bu tezisi əsaslandıraq.

## Azərbaycan–Gürcüstan əməkdaşlığı

Ulu öndər Heydər Əliyev xalqın tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra rəsmi Bakının xarici siyasətində Gürcüstan istiqaməti xüsusi yer tutdu. Heydər Əliyev hər Tbilisi səfərində enerji sferasında strateji əməkdaşlığın önəmini vurğulayırdı. Qarşıya çıxarılan bir sıra əngəllərin aşılmasında da Heydər Əliyev həlledici rol oynadı. Nəticədə, sözün həqiqi mənasında Azərbaycanın mehriban qonşuluq siyasəti regionda ciddi dəyişiklik etdi. Son 300 ildə ilk dəfə olaraq Cənubi Qafqazın dövlətlərindən biri digərinin maksimum dərəcədə dost keyfiyyətində enerji sahəsində əməkdaşlığa cəlb edillməsi üçün mümkün olan hər şeyi etdi. Bu, Heydər Əliyevin timsalında Cənubi Qafqazda real davamlı sülhyaratma prosesi ilə regional əməkdaşlığın daxili siyasi və məntiqi bağlılığını təmin etməyin ilk nümunəsi idi.

Deməli, faktiki olaraq Heydər Əliyev keçən əsrin son onilliyində başqa nümunələrlə yanaşı regional sülhyaratma ilə əməkdaşlığın yeni məzmunda sintezini formalaşdırmaqla politoloji yeniliyə imza atdı. Çünki region tarixində həmin nümunənin oxşarı yoxdur. Hətta əsrlərlə Azərbaycanla Gürcüstanı fərqli geosiyasi müstəviyə yerləşdirmək kimi bir xətt seçmişdilər. Həmin xəttin başlıca geosiyasi xüsusiyyəti Azərbaycanla Ermənistanı qarşı-qarşıya qoymaqla Gürcüstanı regional miqyasda ondan kənarda saxlamaqdan ibarət idi.

Bununla faktiki olaraq regionun üç dövləti bir-birindən fərqli geosiyasi maraq güdməyə məcbur qalmışdı. Azərbaycan isə məhz bu xətti darmadağın etdi. Uzun sürən illərdən sonra konkret enerji layihələri ilə regional əməkdaşlığın təməlinə sülhü yerləşdirdi və Gürcüstanı bu prosesə daxil edərək ziddiyyətlərdən birini neytrallaşdırdı. Bununla həm də regionun əsas münaqişə mənbəyi olan Ermənistanın tədricən sülhə və əməkdaşlığa gəlməsinin geosiyasi bazasını yaratdı.

İndi Azərbaycanla Gürcüstan kifayət qədər səmimi və obyektiv ədalətli şərtlər daxilində strateji tərəfdaşlıq edirlər və regionun maraqları naminə çox işlər görməyə istiqamətlənmişlər.

## Erməni təcavüzünün ram edilməsi

1993-cü ilin iyunundan Azərbaycan Respublikasının xarici siyasətində Ermənistanın yeri və rolu dəqiqləşdirildi. Ulu öndər onun üç əlamətini çıxışlarında göstərmişdir.

Birincisi, Ermənistan uzun illər havadarlarının dəstəyi ilə anti-Azərbaycan siyasəti aparmışdır və bunun cavabını alacaqdır.

İkincisi, Ermənistan yalnız Qarabağın bir hissəsini işğal etməmişdir – o, həm də Qərbi Azərbaycanın işğalı və oradan azərbaycanlıların deportasiyası nəticəsində havadarlarının yaratdığı qondarma dövlətdir və buna görə də cavab verəcəkdir.

Üçüncüsü, Azərbaycan Respublikası üçün ilk dövləti vəzifə milli ideya səviyyəsində ölkənin ərazi bütövlüyünü və suverenliyini tam təmin etməkdən ibarətdir.

Bunlarla yanaşı, Azərbaycan Respublikasının regional və qlobal kontekstdə Ermənistana münasibəti də çox maraqlıdır. Onun əsas mahiyyətini Ulu öndər dəqiq müəyyən etmişdir. Yəni Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edildikdən sonra Ermənistan regional sülhyaratma prosesinə və əməkdaşlığa qoşula bilər. “Siyasi qapı”nın əsrlərdir qəvi düşmənçilik etmiş bir qövmə açıq saxlanması Azərbaycan liderinin böyük humanitar, sülhsevər və qarşılıqlı faydalı əməkdaşlığa yönəlmiş siyasi iradəsinin ifadəsidir. Nəzəri baxımdan vurğulanan özəllik iki siyasi parametrin əlamətini ifadə edir

Birincisi, Azərbaycan Respublikası əsas məqsəd kimi ərazi bütövlüyü və suverenliyin təminini seçmişdir. Bu, əbədi düşmənçilik deyildir, tarixi ədalətin bərpa olunmasıdır. Lakin Azərbaycan heç zaman unuda bilməz ki, indi “Ermənistan” adlanan ərazi tarixi Qərbi Azərbaycandır. Bunun hesabı isə başqa mövzudur.

İkincisi, indiki mərhələdə ərazi bütövlüyü və suverenliyin təmini Ermənistanın regional təhlükəsizlik, əməkdaşlıq və humanitarlıq mühitinə inteqrasiyasına əsas yarada bilər. Bu, Bakının regional sülhsevərliyinin mühüm əlamətini təşkil edir. Azərbaycan milli ideyasını reallaşdırdıqdan sonra rəqibi təcrid etməklə deyil, ümumregional proseslərə inteqrasiya etməklə yeni geosiyasi mənzərə formalaşdırmağa çalışır. Bu aspektdə Prezident İlham Əliyevin aşağıdakı fikirləri çox maraqlı və əhəmiyyətlidir. Dövlət başçısı 2025-ci ilin aprel ayında keçirilən “Yeni dünya nizamına doğru” adlı beynəlxalq konfransda bəyan etmişdir: “İşğal illərində bizim başlıca xarici siyasi prioritetimiz ərazi bütövlüyünün təmini olmuşdur. Bütün cəhdlərimizin məqsədi suverenliyin və ərazi bütövlüyünün təminindən ibarət olmuşdur..., çünki bu, Azərbaycan xalqı və Azərbaycan dövlətinin milli ideyası idi”.

Bu fikirlərdən Azərbaycanın xarici siyasətinin sülhsevərliyi ilə humanitarlığının qarşılıqlı əlaqələrinə maraqlı keçid mövcuddur.

## Regionlararası transformasiya

Azərbaycanın xarici siyasətinin sülhsevərlik komponentini yalnız regional miqyasla məhdudlaşdırmaq doğru olmazdı. Bakı daha geniş geosiyasi məkanda bu xətti inkişaf etdirir. O cümlədən, türk dövlətləri ilə münasibətlərində sülhsevərliyin humanitarlıqla vəhdətinə nail olmuşdur. Burada humanitarlıq faktorunun önə çıxarılması sülhsevərliyin məhdud etnik-mədəni çərçivədə deyil, bütövlükdə ümumbəşəri kontekstdə məzmun aldığının göstəricisidir. Yəni Azərbaycan rəhbərliyi xarici siyasəti mahiyyətcə humanitar xarakterdə formalaşdırmışdır. Bu, hansısa ikinci dərəcəli parametr deyildir, ölkənin xarici siyasət kursunun mahiyyətinə aiddir. Azərbaycan-Özbəkistan münasibətlərinin inkişaf dinamikası prizmasında həmin məqam aydın görünür.

Özbəkistan Prezidenti Ş.Mirziyoyevin Xankəndiyə səfəri zamanı aparılan müzakirələrin ruhu və məzmunu irəli sürülən tezisi təsdiq edir. Danışıqlarda Azərbaycan Prezidenti demişdir: “Keçən il Daşkənddə Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Bu, istənilən ölkələrin münasibətlərində ən yüksək və əhəmiyyətli sənəddir. Biz artıq bir ilə yaxındır ki, rəsmi müttəfiqik və bunu beynəlxalq arenada fəal qarşılıqlı fəaliyyətlə, qarşılıqlı dəstəklə, həmçinin bir çox sahədə həyata keçirdiyimiz konkret plan və layihələrlə nümayiş etdiririk”.

İlham Əliyev Azərbaycanla Özbəkistanın əməkdaşlığının rəsmi müttəfiqlik səviyyəsinə yüksəlməsini öncədən müəyyən edilmiş xarici siyasət kursunun məntiqi nəticəsi kimi təqdim edir. Nəzərə alaq ki, Özbəkistanla rəsmi müttəfiqlik II Qarabağ müharibəsində əldə edilən böyük qələbədən sonra reallaşmışdır. Bu o deməkdir ki, Bakı faktiki olaraq regional miqyasda sülhsevərliyi və humanitarlığı regionlararası miqyasa uğurla proyeksiya edə bilmişdir.

Bu da son deyildir və onunla əlaqədar Azərbaycanın dövlət başçısı çox maraqlı fikir bildirmişdir. İlham Əliyev demişdir: “Əlbəttə, son illər münasibətlərimiz indi Sizin də dediyiniz kimi, tamamilə başqa səviyyəyə yüksəlir. Bizim real uğurlarımız var. Sizin də qeyd etdiyiniz kimi, biz artıq müttəfiqik. Bu, artıq bütün mətləblərdən xəbər verir. Hökumətlərarası səviyyədə, müttəfiqlik diplomatiyasında bunlar onu göstərir ki, biz artıq yaxın qonşular, yaxın dostlarıq. Bütün razılaşmalarımız da yüksək səviyyədə olacaq, Sizinlə razılığa gəldiyimiz kimi, nəzarət olunacaq və həllini tapacaq”.

Deməli, strateji müttəfiqlik yaxın qonşuluq və yaxın dostluqla tamamlanır. Müasir dünyada baş verənlər göstərir ki, bu, böyük nemətdir. Çünki rəsmən strateji müttəfiqlər heç də gerçəkdən yaxın qonşu və dost ola bilmirlər. Bu, humanitarlığın çox əhəmiyyətli göstəricisidir.

Azərbaycan Prezidenti həmin prosesin daha dərində olan faktorları haqqında da bəhs etmişdir. Dövlət başçısı demişdir: “Biz iki yaxın xalqıq və tarixdə ortaq tərəflərimiz, ruhən, əxlaq, dünyaya baxış nöqteyi-nəzərindən çoxlu ümumi cəhətimiz var, dilimiz birdir, mədəniyyətimiz birdir, bir çox məsələni həll edirik. Bu gün məhdud dairədə tariximizi çox xatırladıq. Əlbəttə, çox şey əldən verilib. Amma biz Sizinlə onların yerini doldururuq. Biz bu gün göstəriş verəcəyik, onların yerini dolduracağıq və nəzarətə götürdüyümüz bütün məsələlər mütləq yerinə yetiriləcək”.

Beləliklə, Azərbaycanın xarici siyasətinin sülhsevərliyi ilə humanitarlığının rəsmi müttəfiqlik çərçivəsində dəqiq məzmunu və strukturu mövcuddur. Orada siyasi aspektlə mənəvi, tarixi, geosiyasi və mədəni aspektlər bir-biri ilə sıx əlaqədədir. Bu anlamda etnik-mədəni bağlılığı olmayan, lakin səmimi müttəfiqlik edən istənilən dövlət Azərbaycana dost ola bilər. “Dost” anlayışı bu cür yanaşmada birbaşa siyasi və geosiyasi məna çaları alır. Məntiqi olaraq belə alınır ki, Azərbayan üçün strateji müttəfiq həm də potensial “dost” və “qardaş”dır. Həmin prizmada Rusiya da əsl dost ola bilər. Buna Azərbaycan tərəfdən məhdudiyyət yoxdur.

Üzərində dayandığımız bir sıra özəlliklər göstərir ki, Azərbaycanın xarici siyasətinin sülhsevərliyi ilə humanitarlığı maraqlı şəkildə qarşılıqlı əlaqədədirlər. Onların vəhdəti Cənubi Qafqazda yeni xarici siyasət kursu nümunəsinin formalaşdığını göstərir. İndiki mərhələdə həmin özəllik regional miqyası aşaraq regionlararası səviyyədə müsbət bəhrələrini verir. Burada diqqəti politoloji aspektdə çəkən əsas məqam ondan ibarətdir ki, Azərbaycan sülhsevərlik və humanitarlıq kimi faktorlarla dostluq və qardaşlığın geosiyasi-hüquqi anlamları arasında bağlantı yarada bilmişdir. Bu, təbii ki, sülh və əməkdaşlıq kontekstlərində müasir xarici siyasətdə əhəmiyyətli bir özəllikdir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Aİ Gürcüstanda yerli seçkiləri pozmağa çalışır

**Gürcüstanda siyasi atmosfer bələdiyyə seçkiləri yaxınlaşdıqca gərginləşir və vətəndaş cəmiyyəti ilə hakimiyyət arasında qarşıdurma həlledici mərhələyə daxil olur. Prosesin hansı istiqamətdə inkişaf edəcəyi yaxın aylarda aydınlaşacaq. Hazırkı mərhələdə isə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin Avropa İttifaqının (Aİ) Tbilisidəki səfirliyi və onun maliyyələşdirdiyi təşkilatlarla bağlı səsləndirdiyi sərt ittihamlar diqqət çəkir.**

Papuaşvili açıq şəkildə bəyan edir ki, Aİ maliyyəsi ilə dəstəklənən qeyri-hökumət təşkilatları 2025-ci ilin oktyabrında keçiriləcək yerli özünüidarəetmə seçkilərinin pozulması üçün fəaliyyətə başlayıblar. Onun sözlərinə görə, bu təşkilatların fəaliyyəti beynəlxalq hüququn pozulmasıdır və məsuliyyət donorların, xüsusilə də Aİ-nin üzərinə düşür.




Buna uyğun olaraq da “Gürcü arzusu” partiyası artıq bəzi xarici diplomatlara və siyasi dairələrə qarşı əvvəlki güzəştli yanaşmanı dayandırıb. Gürcüstan Mərkəzi Seçki Komissiyası da bu kontekstdə ictimaiyyətə açıqlama verərək, ATƏT-in Gürcüstanda 2024-cü il parlament seçkiləri ilə bağlı qəbul etdiyi Porto Bəyannaməsinin seçki administrasiyasını gözdən salmaq üçün istifadə edildiyini bildirib. MSK qeyd edib ki, bəyanatda birbaşa seçki saxtakarlığından söz açılmasa da, media və bəzi təşkilatlar bu sənədi manipulyativ şəkildə təqdim edərək ictimai rəyə təsir etməyə çalışıblar. Vurğulanıb ki, MSK qanuni və bitərəf fəaliyyət göstərən bütün müşahidəçilərlə əməkdaşlığa açıqdır, amma siyasi yönlü çıxışlara qarşı mübarizə aparacaq.

Bu ittihamların fonunda Gürcüstandakı Qərb təmsilçiləri də susmur. ABŞ-ın Gürcüstandakı səfiri Robin Danigan “Gürcü arzusu” partiyasının fəxri sədri Bidzina İvanişvilini ölkənin maraqlarını şəxsi maraqlara qurban verməkdə ittiham edib. Səfirin sözlərinə görə, İvanişvili həm Tramp, həm də Bayden administrasiyası dövründə ABŞ ilə dialoqa girməkdən imtina edib. Bu, diplomatın fikrincə, onun Gürcüstanın milli maraqlarını deyil, şəxsi hesablamalarını üstün tutduğunu göstərir: “Bayden administrasiyası dövründə mən onunla görüş tələb etdim ki, münasibətlərimizi düzgün məcraya qaytarmağın yollarını müzakirə edək, lakin, o, görüşdən imtina etdi. Onun verdiyi rəsmi səbəb sanksiyaya məruz qalması idi. Mən düşünürəm ki, əgər ölkənin de-fakto lideri ABŞ rəhbərliyi ilə görüşmək və ya Tramp administrasiyasından gələn mesajı qəbul etmək istəmirsə, bu, faktiki olaraq şəxsi maraqları milli maraqlarından üstün tutması deməkdir”.

*

Bəli, Gürcüstanda qarşıdan gələn yerli özünüidarəetmə seçkiləri iqtidar–müxalifət mübarizəsinin real meydanı olacaq. Seçkilər ölkənin bütün rayonlarında keçiriləcək və həm mer, həm də sakrebulo üzvləri seçiləcək. Hakim partiyanın bu seçkilərdə iştirakı rəsmi şəkildə bəyan olunub. Müxalifət partiyalarından “Gürcüstan naminə”, “Yeni siyasi mərkəz – Girçi” və “Lelo” da seçkidə iştirak edəcəklərini təsdiqləyiblər. Lakin əsas müxalifət partiyalarından “Vahid milli hərəkat”, “Droa”, “Avropa Gürcüstanı”, “Azadlıq meydanı” və digər partiyalar seçkilərdən imtina etdiklərini açıqlayıblar. Bu isə seçki prosesinin legitimliyi və rəqabətlilik səviyyəsi ilə bağlı əlavə suallar yaradır. Bu, həm də müxalifət daxilində parçalanmadan xəbər verir.

Yada salaq ki, iyunun əvvəlində bələdiyyə seçkilərində iştirak və ya boykot məsələsində müxalifət düşərgəsində ciddi fikir ayrılığı olub. Bu, əvvəlcə adi diskussiyadan başlasa da, tezliklə qarşılıqlı təhqirlərə və siyasi xaosa keçdi. Vahid mövqe qoymaq əvəzinə, parçalanmış, bir-birinə qarşı çıxan qruplar meydana çıxdı, bələdiyyə seçkilərində iştirak etmək istəyən müxalifət partiyaları xəyanətdə ittiham edildi. Bəzilərində istefalar baş verdi. Məsələn, “Lelo–Güclü Gürcüstan” partiyasının yerli özünüidarəetmə orqanlarına seçkilərdə iştirakla bağlı qərar verməsi partiya daxilində istefalara səbəb oldu. Qərarla razılaşmayan, partiyanın aparıcı üzvlərindən olan Saba Buadze, Ana Naçvlişvili və Dea Metreveli siyasi şuradan ayrıldıqlarını açıqladılar. Onlar qərarlarını sosial media vasitəsilə açıqlayaraq ölkədəki mövcud vəziyyətdə seçkilərdə iştirakın heç bir nəticə verməyəcəyini və bu qərarın böyük səhv olduğunu vurğuladılar. Buadze, Naçvlişvili və Metreveli demokratik Gürcüstan üçün mübarizələrini davam etdirəcəklərini bildirdilər.

Maraqlıdır ki, bu arada “Güclü Gürcüstan” koalisiyası sabiq prezident Salome Zurabişvilini Tbilisi meri postuna təklif edib. Blokun liderlərindən biri Aleko Elisaşvili deyib: “Biz kompromislərə hazırıq. Mənim ideal ssenarim altı böyük şəhərdə mübarizə aparmaq, qalanları boykot etmək və vahid namizədlər irəli sürməkdir. Salome Zurabişvili Tbilisidə liderdir və biz onun ətrafındayıq. Gəlin emosiyaları bir kənara qoyub, mübarizə strategiyası üzərində düşünək”.



Göründüyü kimi qarşıdan gələn bələdiyyə seçkisi ilə bağlı müxalifət cəbhəsində parçalanma var.

*

Gözlənilən siyasi fırtınadan əvvəl Gürcüstanda hələlik sakitlik hökm sürür. Son aylar küçə yürüşləri, vətəndaş etirazları və müxalifətin mobilizasiyası ilə müşahidə olunan dinamizm nəzərəçarpacaq şəkildə zəifləyib. Bunun da səbəbləri var. Xüsusilə gənclər arasında motivasiya verən dramatik hadisələrin və polis zorakılığı ilə müşayiət olunan toqquşmaların olmaması fəallığın azalmasına səbəb oub. İkincisi, yay fəsli Tbilisinin demoqrafik mənzərəsini dəyişib. Şəhər boşalıb, ictimai-siyasi həyatda durğunluq hiss olunur. Üçüncü və bəlkə də əsas səbəb, siyasi müxalifətin daxilində baş verən parçalanmadır. İyunun əvvəlində qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı yaranan “iştirak və ya boykot” dilemması müxalifət düşərgəsində sərt qarşıdurma və sonradan qarşılıqlı ittihamlarla nəticələnib. Bu xaotik atmosfer isə həm etirazçıların ovqatına, həm də ümumi dinamizmə mənfi təsir göstərib.

Ekspertlərin fikrincə, bu durğunluq müvəqqətidir, avqust–sentyabr aylarında siyasi fəallığın artacağı gözlənilir. Oktyabr ayında baş tutacaq seçkilər, xüsusilə də hökumət partiyası olan “Gürcü arzusu” üçün həlledici əhəmiyyət kəsb edir. Bu seçkilərdə “Gürcü arzusu”nun qalib gələcəyi ehtimalı yüksəkdir. Bunun əsas səbəblərindən biri yerli idarəetmə seçkilərinin spesifikası ilə bağlıdır. Nəticələr hər bir bələdiyyə və ya rayon üzrə ayrıca hesablanır. Bu isə iri və təşkilatlanmış siyasi qüvvələrə daha çox üstünlük verir. Kiçik və zəif müxalif partiyalar bu sistem daxilində nəticə əldə etməkdə çətinlik çəkirlər. Hökumət isə bu mexanizmdən öz siyasi mövqeyini möhkəmləndirmək üçün effektiv şəkildə istifadə edir.

Digər mühüm amil müxalifətin bir hissəsinin seçkiləri boykot etməsi ilə bağlıdır. Bu addım həm daxildə siyasi parçalanmanı dərinləşdirə, həm də beynəlxalq ictimaiyyətin seçkilərin legitimliyinə münasibətində suallar doğura bilər. Beynəlxalq təşkilatların və Qərb ölkələrinin gözləntiləri şəffaf və inklüziv seçki prosesinin təmin olunmasına yönəlib. Əks təqdirdə, Gürcüstan hökuməti daha geniş siyasi təzyiqlərlə üzləşə bilər.

Bütün bu proseslər fonunda Gürcüstan siyasi baxımdan yeni dönüş nöqtəsinə yaxınlaşır. Hakim partiyanın artan nüfuzu, vətəndaş cəmiyyətinin davam edən müqaviməti və Qərb aktorlarının ardıcıl tənqidləri seçkiləri, sadəcə, yerli səviyyəli tədbir olmaqdan çıxarıb, ölkənin gələcək siyasi trayektoriyasını müəyyənləşdirəcək əsas imtahana çevirir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# “OPEC plyus” hasilatı 550 min barel artıracaq

**“OPEC plyus” razılaşmasına daxil olan və neft hasilatını könüllü şəkildə azaldan səkkiz ölkə iyulun 5-də keçirilən iclasda gələn ay gündəlik neft hasilatını sutkada 548 min barel artırmaq barədə razılığa gəlib. Bununla bağlı məlumat “OPEK”in rəsmi açıqlamasında yer alıb. Məlumata görə, sentyabr ayı üzrə hasilat planının müzakirə olunacağı “OPEC plyus” “səkkiz”liyinin növbəti iclası avqustun 3-də keçiriləcək.**




Xatırladaq ki, “OPEC plyus” təşkilatının səkkiz ölkəsi (Rusiya, Səudiyyə Ərəbistanı, İraq, BƏƏ, Qazaxıstan, Əlcəzair, Oman və Küveyt) 2024-cü ilin əvvəlindən etibarən gündəlik, ümumilikdə, 2,2 milyon barel həcmində hasilatı könüllü şəkildə azaldırdı. 2025-ci ilin aprelindən isə onlar azaldılmış həcmləri tədricən bazara qaytarmağa başlayıblar. Belə ki, apreldə “səkkizlik” gündəlik hasilatı 138 min barel, may-iyul aylarında isə sürətlənmiş templə hər ay 411 min barel artırıb.

Qeyd edək ki, “OPEC plyus” Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) və quruma daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüsdür. Azərbaycan da “OPEC plyus” razılaşmasının iştirakçısıdır.

Yeri gəlmişkən, qurumun son iclasından sonra dünya bazarında neftin qiymətində azalma müşahidə olunmağa başlayıb. Bunu son günlərin ticarət məlumatları da sübut edir. Belə ki, həftənin ilk günündə Londonun “ICE Futures” birjasında “Brent” markalı neftin sentyabr fyuçerslərinin qiyməti 0,44 faiz azalaraq 1 barel üçün 68 ABŞ dolları, WTI markalı neftin avqust fyuçerslərinin qiyməti isə 0,36 faiz azalaraq 66,26 ABŞ dolları təşkil edib. Növbəti gün isə “Brent” neftinin ixracına dair 2025-ci ilin sentyabr müqaviləsinin dəyəri daha 0,47 faiz azalaraq 1 barelə görə 69,25 dollara, Nyu-Yorkun NYMEX əmtəə birjasında bu ilin avqust ayında ixrac etməklə WTI markalı neftin 1 barelinin qiyməti isə 0,53 faiz azalaraq 67,57 dollara bərabər olub.

İyulun 8-də dünya bazarlarında “Azeri Light” markalı neftin qiymətində isə əksinə, bahalaşma müşahidə olunub. Belə ki, Azərbaycan neftinin 1 barelə olan qiyməti 0,53 dollar və ya 0,71 faiz artaraq 74,7 ABŞ dolları təşkil edib. Xatırladaq ki, Azərbaycanın builki dövlət büdcəsində neftin 1 barelinin orta qiyməti 70 ABŞ dollarından hesablanıb.

# Sənayenin inkişafında maneələrin və çətinliklərin aradan qaldırılmasına start verildi

**Dövlət başçısının tapşırığı ilə iqtisadiyyatın gələcək dövrün çağırışlarına uyğunlaşdırılmasına imkan verməsi məqsədilə yaradılan İqtisadi Şuranın 11 aprel 2025-ci il tarixli Qərarına əsasən, Şuranın tərkibində Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrupu yaradılmışdır. İşçi qrupunun yaradılmasında əsas məqsədlər sahibkarlıq fəaliyyətinə maneə yaradan, habelə qurumların səlahiyyətlərindən irəli gələn sui-istifadə hallarının müəyyən edilməsi və aradan qaldırılması, qanunvericilikdə olan boşluqlardan sahibkarların əleyhinə istifadə hallarının qarşısının alınması, iqtisadiyyatın müxtəlif sahələri üzrə sahibkarların üzləşdiyi problemlərin dərindən araşdırılması və təhlili, müvafiq təkliflərin hazırlanması və təqdim olunmasında çevik və səmərəli fəaliyyətin təşkilindən ibarətdir.**

Ölkə başçısı İşçi qrupunun qarşısında sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması tapşırığı qoymuşdur.

İqtisadi sahənin əsas sütunu olan sənaye sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Koordinasiya Qrupunun rəhbəri “Mətanət A” Şirkətinin Müşahidə Şurasının sədri və Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) İdarə Heyətinin sədri Bəşirov Elxan Hidayət oğlu seçilmişdir. Koordinasiya qrupu ölkənin 100-dən çox aparıcı şirkətini özündə birləşdirir. Qrupun rəhbəri koordinasiya üzvləri ilə birgə maneə və çətinliklərlə bağlı təklifləri müzakirə edir, onları təhlil edərək optimallaşdırır və qanunvericiliyə uyğun formada layihələndirərək ölkə başçısının köməkçisinə təqdim edir.

Sahibkarlara yaradılan maneələr dövlət proqramlarının icrasını gecikdirir. Bu maneələr birdəfəlik aradan qaldırılmalı və bunun üçün lazımi tədbirlər görülməlidir.

Ölkənin sosialyönümlü iqtisadiyyatı və dövlət başçısı tərəfindən nümayiş etdirilən güclü siyasi iradəyə uyğun olaraq ölkədə iqtisadi aktivliyin artırılması və insanların iş yerləri ilə təmin edilməsi iqtisadi siyasətin prioritetliyinin göstəricisidir.

Həyata keçirilən bütün bu tədbirlər və aparılan islahatlar sənaye sahələrinin sürətlə inkişafına daha da təkan verəcəkdir. Cənab Prezidentin sözü ilə desək, Azərbaycanda sənayeləşmə sürətlə inkişaf edir. Sənaye sahələrinin inkişafı isə güclü Azərbaycan deməkdir. Ulu öndərimizin “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” kəlamı bu gün cənab Prezidentin həyata keçirdiyi iqtisadi islahatlarla reallığa çevrilmişdir.

Güclü iqtisadiyyat əhalinin rifahı, ölkənin sabitliyi, ordunun gücü, dövlətin təhlükəsizliyi deməkdir. Məhz iqtisadi gücümüzə söykənərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində torpaqlarımız düşmən tapdağından azad edildi. Hazırda iqtisadi gücümüz ilə doğma torpaqlarımıza həyat yenidən qayıdır.

Cənab Prezident dəfələrlə “Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır. Biz bu istiqaməti seçmişik və bu istiqamət bizə uğurlar gətirir” deyə bildirib.

Hər bir sahibkar ölkəmizin sosial-iqtisadi inkişafı, istehsal potensialını artırmaq üçün öz öhdəsinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirməlidir. Azərbaycanda dövlət tərəfindən sahibkarlar üçün hər cür şərait yaradılıb, bütün lazımi dəstək göstərilir. Şübhəsiz, dövlət və özəl sektorun birgə fəaliyyəti ölkənin sosial-iqtisadi inkişafı üçün qarşıya çıxan maneə və çətinliklərin həlli istiqamətində həyata keçirilən tədbirlər öz töhfəsini verəcəkdir.



Bu səbəbdən sahibkarlar dövlət tərəfindən yaradılan portal (https://economicreforms.gov.az/) vasitəsilə maneə və çətinlikləri qeyd etməklə öz təkliflərini verməlidirlər.

*“Mətanət A” Şirkəti*

# Özəl sektorun xarici bazarlara çıxışına “yaşıl” işıq!

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkə hesabında etdiyi paylaşımda respublikada “Dayanıqlı inkişaf perspektivləri: iqtisadi və iqlim diplomatiyası, enerji təhlükəsizliyi və bağlantılar” mövzusunda keçirilən paneldə iştirak etdiyini, toplantıda Azərbaycanın beynəlxalq enerji, nəqliyyat və ticarət platformalarında strateji rolu, regional əməkdaşlığın şaxələndirilməsi, özəl sektorun xarici bazarlara çıxışının artırılması, “yaşıl” enerji resurslarından istifadənin təşviqi, eləcə də iqlim fəaliyyətinin gücləndirilməsi barədə müzakirələr aparıldığını bildirib.**



Qeyd edək ki, müasir dövrdə enerji təhlükəsizliyi, dayanıqlı nəqliyyat və regional iqtisadi əməkdaşlıq dünya gündəmində prioritet mövzulardan birinə çevrilib. Bu kontekstdə Azərbaycan yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının strateji aktorlarından biri kimi çıxış edir. Ölkənin geosiyasi mövqeyi, zəngin enerji resursları, dayanıqlı nəqliyyat infrastrukturu və artmaqda olan “yaşıl” enerji potensialı respublikamızın beynəlxalq platformalarda artan rolunu şərtləndirir.

Azərbaycan neft və qaz ehtiyatları ilə uzun illərdir ki, beynəlxalq enerji bazarının etibarlı tərəfdaşı kimi tanınır. “Əsrin müqaviləsi” ilə əsası qoyulan neft strategiyası ölkəmizi Cənubi Qafqazda mühüm enerji ixracatçısına çevirib. Hazırda “Cənub Qaz Dəhlizi” kimi irimiqyaslı layihə vasitəsilə Azərbaycan qazı Avropa ölkələrinə çatdırılır. Bu, həm Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir, həm də respublikamızın geoiqtisadi mövqeyini gücləndirir.

Bakı – Tbilisi – Ceyhan (BTC) və Bakı – Tbilisi – Ərzurum (BTƏ) kimi boru kəmərləri regionun enerji xəritəsini dəyişib, Azərbaycanı Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan enerji arteriyasına çevirib. Bu layihələr indiyədək iqtisadi inkişafı şərtləndirməklə bərabər, siyasi sabitliyin də təminatında mühüm rol oynayıb.

Enerji ilə paralel olaraq, Azərbaycan nəqliyyat sektorunda da regional inteqrasiyanın mərkəzindədir. Orta dəhliz adlanan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu vasitəsilə Azərbaycan Avropa və Asiyanı birləşdirən mühüm tranzit ölkəsinə çevrilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı – Tbilisi – Qars dəmir yolu bu dəhlizin əsas sütunlarıdır. Bu layihələr Azərbaycanın nəqliyyat – logistika potensialını artırmaqla yanaşı, özəl sektorun da xarici bazarlara çıxışını asanlaşdırır.

Eyni zamanda, Zəngəzur dəhlizinin reallaşması perspektivi Azərbaycanın Şərq – Qərb və Şimal – Cənub dəhlizləri arasında qovşaq rolunu daha da möhkəmləndirəcək. Bu da region ölkələri arasında ticarətin genişlənməsi, yeni investisiya imkanlarının yaranması və iqtisadi şaxələnmənin sürətlənməsi deməkdir.

Azərbaycan hökuməti qeyri-neft sektorunun inkişafını və özəl sahibkarlığın dəstəklənməsini milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi müəyyən edib. “Made in Azerbaijan” brendinin təşviqi, ixracın stimullaşdırılması və azad iqtisadi zonaların yaradılması kimi təşəbbüslər nəticəsində sahibkarların xarici bazarlara çıxış imkanları əhəmiyyətli dərəcədə genişlənib. Ələt Azad İqtisadi Zonası bu baxımdan mühüm rol oynayır. Burada fəaliyyət göstərəcək müəssisələr üçün vergi və gömrük güzəştləri nəzərdə tutulub ki, bu da həm yerli, həm də xarici investorlar üçün cəlbedici mühit yaradır. Nəticədə Azərbaycan regional ticarət və istehsal mərkəzi olmaq potensialını reallaşdırmağa doğru irəliləyir.

Azərbaycanın 2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransına – COP29-a ev sahibliyi etməsi də ölkəmizin iqlim gündəliyində fəallığının bariz təsdiqidir. Bu qlobal layihə yalnız beynəlxalq iqlim çağırışlarına cavab deyil, həm də Azərbaycanın “yaşıl” enerji strategiyasını dünyaya təqdim olunması üçün unikal platformadır.

Xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin “yaşıl enerji zonası” kimi inkişaf etdirilməsi istiqamətində ciddi addımlar atılır. Günəş və külək enerjisi sahəsində aparıcı beynəlxalq şirkətlərlə əməkdaşlıq nəticəsində böyük həcmlərdə bərpa olunan enerji layihələri həyata keçirilir. 2030-cu ilə qədər, ümumilikdə, 2 qiqavatdan çox “yaşıl” enerji istehsal gücünün yaradılması planlaşdırılır. Karbon emissiyalarının azaldılması, enerji səmərəliliyinin artırılması və ekoloji tarazlığın qorunması istiqamətində milli fəaliyyət planı hazırlanır. Bu, Azərbaycanın “yaşıl” inkişaf yoluna sadiqliyini bir daha nümayiş etdirir.

Ölkəmiz bu gün həm də regional əməkdaşlığın fəal təşəbbüskarı kimi çıxış edir. Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər platformalarda fəal iştirakı çoxtərəfli diplomatiya və inteqrasiya siyasətini gücləndirir. Enerji, ticarət və nəqliyyat sahəsində birgə layihələr təkcə iqtisadi deyil, siyasi sabitlik və sülhə də xidmət edir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr regional inteqrasiyanın möhkəmləndirilməsinə və qarşılıqlı asılılığın artmasına səbəb olur ki, bu da münaqişə risklərini azaldır, iqtisadi inkişafa zəmin yaradır.

Azərbaycan indi, sadəcə, enerji ixracatçısı deyil, həm də nəqliyyat, ticarət, “yaşıl” enerji və iqlim fəaliyyəti sahəsində etibarlı tərəfdaş, regionun inkişaf lokomotivi kimi tanınır. Strateji baxımdan əlverişli mövqe, məqsədyönlü siyasət və çevik diplomatiya ölkəmizi Qafqazın gələcək inkişafında aparıcı rola çıxarır. COP29 çərçivəsində qlobal diqqətin Azərbaycana yönəlməsi isə bir daha göstərir ki, ölkə təkcə resurslara deyil, həm də məsuliyyətə sahib bir aktordur. Bu məsuliyyət çərçivəsində Azərbaycan gələcək nəslə daha sabit, “yaşıl” və dayanıqlı bir region miras qoymağa qadirdir.

# Şərqdən Qərbə mötəbər nəqliyyat körpüsü

## *Azərbaycan dəmiryolçuları Çin şirkətləri ilə tranzit daşımaları genişləndirirlər*



**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (ADY) nümayəndə heyəti Çində işgüzar səfərdədir. Səfər çərçivəsində Azərbaycan dəmiryolçuları Çinin nəqliyyat-logistika şirkətləri ilə görüşlər keçiriblər.**

ADY sədri Rövşən Rüstəmov Çinin CRRC (“China Railway Rolling Stock Corporation”) korporasiyasının vitse-prezidenti Fanq Fenq və korporasiyanın Çjuçjou lokomotiv istehsalı şirkətinin sədri Van Qiaolinlə keçirilən görüşlərdə Azərbaycanın beynəlxalq nəqliyyat-logistika zəncirində rolunun artması ilə əlaqədar olaraq yükdaşımaların etibarlı və təhlükəsiz təmin edilməsi üçün lokomotiv parkının yenilənməsi və genişləndirilməsinə, CRRC ilə bu istiqamətdə əməkdaşlığın dərinləşdirilməsinə xüsusi əhəmiyyət verildiyini qeyd edib.

Söhbət əsnasında, həmçinin Çindən 7 yeni lokomotivin alınması ilə bağlı bu ilin aprel ayında imzalanmış sazişin təfərrüatları, ADY mütəxəssisləri üçün təlim kursları və texniki treninqlərin təşkili, texniki həllər, istehsalat imkanları, təcrübə mübadiləsi kimi məsələlər müzakirə olunub.

Çinin Lyanyunqan Limanının rəhbəri Van Qoi Çao ilə görüşdə isə ADY-nin bu limanla əməkdaşlığının Şərq və Qərb arasında, xüsusilə Orta Dəhliz çərçivəsində nəqliyyat bağlantısının inkişafı baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Hazırda Çin və Azərbaycan arasında yükdaşımaların artan dinamikasının müşahidə olunduğu bildirilib. Qeyd olunub ki, 2024-cü ildə Çindən 287 blok-qatar qəbul edildiyi halda, cari ilin 6 ayı ərzində bu göstərici artıq 199 blok-qatar təşkil edib. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. Bu mənada, Lyanyunqan–Bakı marşrutu üzrə müntəzəm dəmiryol xidmətinin təşkilinin prioritet istiqamətlərdən biri olduğuna diqqət çəkilib.

Bildirilib ki, bu yaxınlarda Bakı Beynəlxalq Dəniz Limanı rəsmi olaraq ADY-nin strukturuna inteqrasiya olunub. Bu addım liman-dəmiryol əməliyyatlarının daha səmərəli koordinasiyasına və beynəlxalq tərəfdaşlara kompleks və optimallaşdırılmış logistika xidmətləri təqdim etməyə imkan verir. Bakı Limanı Asiya və Avropa arasında yük axınının təmin edilməsində vacib rol oynayır. Hazırda limanın yükaşırma gücü ildə 15 milyon ton, o cümlədən 150 min TEU konteyner təşkil edir. Gələcəkdə isə limanın ümumi gücünün ildə 25 milyon ton, o cümlədən 500 min ton TEU konteyner olacağı nəzərdə tutulur.

Van Qoi Çao isə öz növbəsində qeyd edib ki, Lyanyunqan Limanı təkcə Çin deyil, Yaponiya və Koreya məhsullarının da ixracını həyata keçirir, bu da marşrutun əhəmiyyəti və yükdaşıma coğrafiyasını genişləndirir. O əmin olduğunu bildirib ki, qarşılıqlı fəaliyyət nəqliyyat əlaqələrinin möhkəmləndirilməsinə və Lyanyunqan–Bakı marşrutunun Avrasiya məkanında daha rəqabətqabiliyyətli olmasına imkan verəcək.

Azərbaycan nümayəndə heyətinin “China Railway Container Transport Corp. Ltd.” (CRCT) şirkətinin prezidenti Yan Binlə görüşü zamanı isə Rövşən Rüstəmov CRCT-nin Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmiryol qurumları arasında Orta Dəhlizin inkişafı üzrə yaradılmış “Middle Corridor Multimodal Ltd.” birgə müəssisəsinə qoşulmasının əhəmiyyətini vurğulayıb. Bildirilib ki, CRCT-nin birgə müəssisənin işində fəal iştirakı regionun logistika üzrə əlaqələrini, eləcə də Orta Dəhliz boyunca şirkətlərin rolunu gücləndirəcək və marşrutun səmərəliliyini artıracaq.

Görüşdə, həmçinin Orta Dəhliz üzrə yükdaşıma həcmlərinin artırılması üçün geniş potensialın olduğu bildirilib. Çin – Azərbaycan – Çin istiqamətində konteyner daşımaları həcminin çoxaldılması və logistikanın optimallaşdırılması məqsədilə rəqəmsal həllərin tətbiqi, 2025-ci ilin ikinci yarısında göndərişlərin artırılması üçün fəaliyyət planının razılaşdırılması, liman – dəmiryol infrastrukturunun inteqrasiyası kimi mühüm məsələlər müzakirə olunub.

Xatırladaq ki, Azərbaycan dəmiryolçularının Çin Xalq Respublikasına səfəri iyulun 11-dək davam edəcək.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “KƏŞKÜL” jurnalı (qəzet)

## Milli mətbuatın 3-cü nəşri “Əkinçi” yolunu davam etdirib



**...Azərbaycan ziyalılarının maarifçilik ideyaları öz dövründə xalqın mədəni inkişafında çox böyük rol oynamışdır. Onlar bu ideyaları həyata keçirmək üçün dövri mətbuata əsas vasitələrdən biri kimi baxaraq, onun tərəqqi etməsinə çalışırdılar.**

H.Zərdabi cəhalətə və avamlığa qarşı mübarizə aparmaqda dövri mətbuatı ən mühüm bir ideoloji vasitə hesab edirdi. Onun nəşr etdiyi “Əkinçi” qəzeti mədəniyyətimizin və ictimai fikir tariximizin inkişafında yeni bir mərhələ olmuş, yeni demokratik ziyalılar nəsli tərbiyə edib yetişdirmişdir.

“Əkinçi” qəzeti keçən əsrin axırlarında xalqımızın ictimai həyatında elə bir mütərəqqi dönüş yaratdı ki, qəzet bağlandıqdan sonra da ayrı-ayrı maarifpərvər ziyalılar onun mübariz ideyalarını davam və inkişaf etdirməyə çalışırdılar.

“Əkinçi” qəzetindən sonra nəşrə başlayan “Ziya” və “Ziyayi-Qafqaziyyə” qəzetləri maarif və mədəniyyət məsələlərinə az-çox fikir versələr də, dövrün siyasi nəbzini tuta bilmədilər. Hər iki qəzetin naşiri və redaktoru Zaqafqaziya ruhani idarəsinin üzvü Hacı Səid Əfəndi Ünsizadə olduğu üçün burada din ön plana çəkilərək hər bir ictimai təşəbbüsə din cəbhəsindən qiymət verilirdi. Odur ki, bu illərdə daha vacib məsələlərdən yazan, mütərəqqi ideyalar təbliğ edən bir mətbuat orqanına ehtiyac hiss olunurdu. Bunu hər şeydən əvvəl dövrün ictimai-siyasi hadisələrinin özü tələb edirdi...


КЕШКУЛЪ
ЕЖЕМѢСЯЧНЫЙ ЛИТЕРАТУРНЫЙ и ПОЛИТИЧЕСКІЙ ЖУРНАЛЪ
ГОДЪ ПЕРВЫЙ.
Январь 1883 г.
№ 1.
СОДЕРЖАНІЕ:

Belə bir mətbuat orqanının nəşrinə Səid Ünsizadənin kiçik qardaşı Cəlal Ünsizadə təşəbbüs etdi.

Azərbaycan mətbuatı tarixində Cəlal Ünsizadənin xidməti az olmamışdır. O, qardaşlarından fərqli olaraq rus dilində təhsil görmüş, rus və Avropa mədəniyyətinə bələd olan bir ziyalı idi. O, öz fəaliyyətinin məhdud və ziddiyyətli cəhətlərinə baxmayaraq, əsasən dövrünün qabaqcıl maarif və mətbuat xadimi idi. Əslən şamaxılı olan C.Ünsizadə 1873-cü ildə Şamaxı qəza məktəbində Azərbaycan dili fənnindən və şəriətdən dərs demişdir. Təxminən 1876-cı ildə o, Şamaxını tərk edib Tiflisə köçmüş, uzun müddət burada maarif və mətbuat sahəsində çalışmışdır.

C.Ünsizadə “Ziya” və “Ziyayi-Qafqaziyyə” qəzetlərində yaxından əməkdaşlıq etmiş, öz xalqının maarif və mədəniyyətə qovuşması üçün əlindən gələni əsirgəməmişdir. O, 1882-ci il may ayının 12-də Qafqaz canişinliyinin baş mətbuat idarəsinə göndərdiyi məktubunda yazırdı: “Əvvəllər müsəlman məktəblərində işləyən bir müəllim, indi də “Ziyayi-Qafqaziyyə” qəzetində iştirak edən bir əməkdaş kimi öz ictimai fəaliyyətimdə bu xalqlara (Qafqaz xalqlarına – Ş.Q.) yaxın olmuş, onlara bacardığım qədər fayda vermək istəmiş, onların arasında müasir mədəniyyət şüalarının yayılmasına kömək etmişəm. Bunları nəzərə alaraq mən bu il sentyabrdan etibarən aylıq “Kəşkül” (dərvişlərin sədəqə toplamaq üçün gəzdirdikləri çanta) adlı jurnal çıxarmaq niyyətindəyəm. Jurnal üç Şərq xalqlarının dilində: tatar (Azərbaycan – Ş.Q.), fars və ərəb dillərində çıxacaqdır”.

C.Ünsizadənin jurnal nəşr etmək haqqındakı xahişinə həmin il oktyabrın 22-də hökumətin mətbuat haqqındakı qayda-qanunlarına əməl etmək şərti ilə icazə verildi. Nəhayət, 1883-cü ilin yanvarında Tiflisdə jurnalın birinci nömrəsi çapdan çıxdı. Bu, Azərbaycan xalqının tarixində ilk ədəbi-bədii jurnal idi. C.Ünsizadə öz jurnalına “Kəşkül” adını iki məqsəd üçün seçmişdi. Əvvələn, “Kəşkül” avam camaatı dünya hadisələri ilə tanış etmək üçün öz çantasında, yəni səhifələrində geniş və müxtəlif materiallar dərc edəcək, ikincisi, o, elm və sənətin müxtəlif sahələrindən bəhs edən bir maarif çantası olacaqdır.

Doğrudan da “Kəşkül” əsl elm və maarif çantası idi. O, öz qarşısına mühüm ictimai məsələləri işıqlandırmaq, xalqı maarif və mədəniyyətə qovuşdurmaq kimi məsul vəzifə qoymuşdu. Qəzetdə aşağıdakı şöbələr var idi:

I. Daxili şöbə:

1) Ümumiyyətlə maarifə aid baş məqalə, vilayətin müsəlman əhalisinin ədəbiyyatı, sənayesi, ticarəti və iqtisadi həyatı.

2) Dövlətin və xarici ölkələrin müxtəlif şəhərlərindən məktublar.

3) Hökumətin ümumi əmri və xüsusən vilayətə aid qərarlar.

II. Tarixi və siyasi şöbə. Dahi şəxslər və tarixi hadisələr haqqında məlumat, Rusiyanın və xarici dövlətlərin müasir siyasətlərinə dair məqalə.

III. Savadlı və savadsız xalqların adət və ənənələri.

IV. Tənqid və mətbuat xülasəsi.

V. Pedaqogika.

VI. Tibbə dair məqalələr, həkim məsləhətləri.

VII. Şeirlər.

VIII. Müxtəlif materiallar.

IX. Aylıq məlumat. Müsəlman və rus təqvimlərinə məxsus məlumatlar.

X. Müsəlmanlar üçün çətinlik törədən rus söz və terminlərinin izahı.

XI. Elanlar.

C.Ünsizadə jurnalda iştirak edəcək maarifpərvər ziyalıları əvvəlcədən müəyyənləşdirmiş və onlarla razılığa gəlmişdi. “Kəşkül”ün məramnaməsi və müxbirləri haqqında “Ziyayi-Qafqaziyyə” qəzetinin 1882-ci il 32-ci nömrəsində verilən bir məlumatdan aydın olur ki, jurnalda aşağıdakı şəxslər iştirak edəcəkdir: H.Zərdabi, S.Ə.Şirvani, “Yuridiçeskoe obozreniye” jurnalının redaktoru Stepanov, Tiflisin məşhur həkimlərindən Babua, Tiflis Maarif Məclisinin keçmiş rəisi Burseladze, Qori Seminariyasındakı Azərbaycan şöbəsinin müfəttişi Çerniyayevski, Rəşid Axundov (M.F.Axundovun oğlu) və başqaları.

“Kəşkül”ün Bakı, Quba, Qarabağ, İrəvan və sair yerlərdə müvəkkilləri var idi ki, bunlar da oxucularla əlaqə saxlamağa kömək edirdi.

“Kəşkül”ün toxunduğu məsələlər çox geniş və müxtəlif idi. Orada xalqın ehtiyaclarından, geridə qalmasından bəhs edən materiallarla bərabər, ədəbiyyat, incəsənət, elm, maarif, iqtisadiyyat və sair məsələlərə dair yazılmış nəzəri və publisist məqalələr, teatr resenziyaları, orijinal bədii parçalar, rus, Avropa və Şərq ədəbiyyatından tərcümələr də dərc edilirdi. Bununla yanaşı, o, “Əkinçi” qəzetinin ənənələrini qismən davam etdirərək xalqı maarifləndirmək, uşaqları yeni ruhda tərbiyə edib yetişdirmək məsələsinə xüsusi əhəmiyyət verirdi. “Kəşkül”də dərc olunan bədii parçalar, nəzəri və publisist məqalələr nəticə etibarı ilə maarifin təbliğindən uzağa gedə bilmirdi.

“Kəşkül”ün ətrafına toplaşmış maarifpərvər ziyalılar xalqın geridə qalmasının əsas səbəbini savadsızlıqda görür və belə güman edirdilər ki, əgər xalq savadlanıb maarif və mədəniyyətə yiyələnərsə, fanatizmin törətdiyi faciələrdən tezliklə yaxa qurtara bilər.

Bu məsələni geniş surətdə təbliğ etmək üçün ayda bir dəfə nəşr olunan bir jurnal kifayət deyildi. Bunu C.Ünsizadənin özü də hiss etmişdi. O deyirdi ki, xalqın mədəni səviyyəsini yüksəltmək üçün bir jurnal bəs eləməz, bir neçə jurnal və qəzetin nəşr olunması vacibdir. Odur ki, C.Ünsizadə jurnalın təsir dairəsini genişləndirmək üçün onu həftədə bir dəfə nəşr etmək qərarına gələrək, bu haqda 1883-cü ilin oktyabrında Baş mətbuat idarəsinə müraciət etdi. 1884-cü ilin fevralında ona jurnalı həftədə bir dəfə çıxarmaq icazəsi verildi. Lakin bu zaman “Ziya” mətbəəsinin Şamaxıya köçməsi “Kəşkül” jurnalının nəşrini çətinləşdirdi. Çünki “Kəşkül” “Ziya” mətbəəsində çap olunurdu. Buna görə də C.Ünsizadə yenidən Baş mətbuat idarəsinə müraciət edib “Kəşkül”ü həftəlik jurnal yox, qəzet şəklində nəşr etməyə icazə verilməsini xahiş etdi.

Beləliklə, “Kəşkül” jurnalının 11 nömrəsi çıxdıqdan sonra, 1884-cü ildən 12-ci nömrəsindən etibarən həftəlik qəzet kimi nəşr olunmağa başladı. Jurnalın və qəzetin ideya istiqaməti tamamilə eyni idi. Onları bir-birindən fərqləndirən yalnız bir sıra nömrələrin həcmcə böyük olması idi. Buna görə də “Kəşkül” qəzeti dedikdə, həm jurnalı, həm də qəzeti nəzərə almaq lazımdır.

“Ziya” mətbəəsi Şamaxıya köçdukdən sonra “Kəşkül” mətbəə böhranı keçirməyə başladı. O, bir müddət ayrı-ayrı xüsusi mətbəələrdə çap olunurdu.

C.Ünsizadə 1887-ci ildə xüsusi “Kəşkül” mətbəəsi təşkil etdikdən sonra qəzetin işi bir qədər yaxşılaşdı. Bu mətbəə o dövrdə bir çox elmi və bədii kitabların çap olunmasında da böyük rol oynamışdır. Füzulinin “Leyli və Məcnun” poeması ilk dəfə rus dilində “Kəşkül” mətbəəsində kitabça halında buraxılmışdı. “Kəşkül” mətbəəsi qəzetin tirajının artmasına da təsir göstərirdi. 1887-ci ildən sonra qəzetin tirajı, arada ayrı-ayrı nömrələri istisna edilərsə, 488-500 nüsxədən az olmamışdır. Lakin qəzetin tirajı həmişə bir səviyyədə olmurdu, tez-tez artır və ya aşağı düşürdü. Məsələn, 1886-cı ildə qəzetin 60 nüsxə tirajla çıxan nömrələri də olmuşdur. “Kəşkül” qəzeti daim maddi cəhətdən korluq çəkirdi. O, həmişə abunəçiyə möhtac idi.

“Kəşkül”ün ilk nömrələrindən başlayaraq, mürtəce dairələr tərəfindən həmişə ona təzyiq göstərilirdi...

Qəzetə edilən hücumlar və senzur komitəsinin ciddi nəzarəti “Kəşkül”ün nəşrinə mane olurdu. Senzur komitəsi hər dəfə qəzetdən məqalələr çıxarıb saxlayır və onun nəşrini hər vəchlə ləngidirdi. “Kəşkül”ün ildə 42 nömrəsi çıxmalı idi, lakin 17-18 nömrəsi ancaq çıxırdı. Hətta 1891-ci ildə onun cəmi 5 nömrəsi çıxmışdır...

C.Ünsizadə “Kəşkül” qəzetinin ağır vəziyyətə düşməsini millət nümayəndələrinin mətbuata olan etinasızlığında görürdü. Bir qədər sonra biz qəzetdə onun yenə acı şikayətinə rast gəlirik: “Hərgah bu halda bizim oxumağa meyl və rəğbətləri olan qardaşlarımız bu yolda dəxi kisələrinin ağızlarını açmış olsaydılar və hər il bir üç-dörd manat fədakarlıq edər idisələr, o vaxt bu yazıq “Kəşkül” də nəinki həftədə bir dəfə, bəlkə gündə bir dəfə ortaya çıxardı”.

C.Ünsizadə qəzetin müntəzəm çıxması üçün qarşıya çıxan maneələri aradan qaldırmaqda çətinlik çəkirdi. Senzur komitəsi qəzeti tamam bağlamaq üçün daim bəhanə axtarırdı, hətta qəzetin proqramı əsasında müntəzəm çıxmadığı haqqında dəfələrlə hökumət idarələrinə məlumat verilmişdi.

Təsadüfi bir hadisə qəzeti tamamilə bağlamaq üçün senzur komitəsinə imkan verdi.



**Şamil QURBANOV,**
**filologiya elmləri doktoru,**
**professor**

Qəzetin 1891-ci ildə çıxan 121-ci nömrəsində C.Ünsizadə əvəzinə səhv olaraq mürəttib Mustafa Sultanovun imzası getmişdi. Qəzeti saxlamaq mümkün olmadığına görə o, elə bu şəkildə abunəçilərə göndərilmişdir. Senzur komitəsi bu təsadüfi hadisədən istifadə edərək, “redaktorun öz vəzifəsinə etinasız münasibətinə” görə qəzeti, 1891-ci ildə 123 nömrəsi çıxdıqdan sonra tamamilə bağladı.

“Kəşkül” öz ideya istiqamətinə, işıqlandırdığı məsələlərin əhəmiyyətinə görə “Əkinçi” qəzetinə çox yaxın idi. O, din xadimlərinin təsirindən tamamilə uzaq olmasa da, “Əkinçi”nin ideyalarını davam etdirərək, köhnə adət və ənənələrin, Şərq despotizminin əleyhinə çıxır, xalqı maarif və mədəniyyətə qovuşdurmağa çalışır, rus və Avropanın mədəni nailiyyətlərini təbliğ edirdi.

“Kəşkül” qəzetinin ətrafına toplanmış maarifçi ziyalılar xalqın tərəqqisi üçün maarif və mədəniyyətin inkişafına böyük fikir verirdilər. Qəzet, özü yazdığı kimi “maarif və elm, tərəqqi və təqəddüm” şüarı altında fəaliyyət göstərirdi.

Qəzetin mühərrirləri hiss edirdilər ki, xalqın mədəni səviyyəsini yüksəltmək üçün birinci növbədə mövcud məktəbləri yenidən qurmaq lazımdır. Onlar o zamankı məktəblərin vəziyyətini “hali-fəlakət” adlandıraraq yazırdılar: “Dünyada ismi var, cismi yox bir şey var isə o da bizim məktəblərimizdir. Zira məktəb və təlimxana bir növ “insan fabrikası” deməkdir ki, bir qapısından daxil olan tifili-cahil o biri qapısından “insan-kamil” olmaqla ortaya çıxır”.

Bu fikir qəzetin dini məktəbləri yox, xalq məktəblərinə böyük əhəmiyyət verdiyini sübut edir... Qəzet nə yolla olur-olsun, xalqı maarifləndirməklə onu avamlıqdan, cəhalət girdabından qurtarmağa çalışırdı...

Xalqın maariflənməsi sahəsində “Kəşkül”ün tutduğu mövqe mütərəqqi idi. O, gələcəkdə xalqın xoşbəxt olması üçün onun uşaqlarına əvvəlcədən yaxşı təlim verilməsi məsələsini irəli sürürdü...

Qəzetin maarifpərvər mühərrirləri onun səhifələrində göstərirdilər ki, hazırda “məsələyi-mühümdən biri tərbiyeyi-övlad məsələsidir”.

“Kəşkül” qəzeti təlim-tərbiyə məsələlərindən danışarkən dünyəvi elmlərin və mədəni xalqların dillərinin, birinci növbədə isə rus dilinin tədrisinə böyük əhəmiyyət verirdi. Dövrün maarifpərvər ziyalıları başa düşürdülər ki, əgər xalq rus dilini öyrənərsə, o zaman bu dil vasitəsilə rus və Avropa mədəniyyətinə daha tez yiyələnər, öz gerilik səbəblərini başa düşər və bunun əlacına çarə tapar...

“Kəşkül” qəzetinin ətrafına toplanmış maarifçilər uşaqların savadlanması üçün birinci növbədə dərs vəsaitinin vacib olduğunu da söyləyirdilər. Onlar qəzetin səhifələrində çıxış edərək həmvətənlərinə deyirdilər ki, “nifar və şəqqaqi bərtərəf edib və əl-ələ verib gözlərimizin nuru övladlarımızın təlim və tərbiyəsi” üçün lazım olan dərsliklər hazırlayaq.

“Kəşkül” mətbəəsində rus və Azərbaycan dillərində tez-tez elmi və bədii kitablarla bərabər, dərs vəsaiti də çap olunurdu. Çerniyayevskinin S.Vəlibəyovla birlikdə yazdığı “Vətən dili” adlı kitabı, Cəlal Ünsizadə və N.K.Pomartsevin birlikdə tərtib etdikləri “Müəllimi-lisani-rus” adlı üç hissədən ibarət dərs vəsaitinin birinci hissəsi bu mətbəədə çap olunmuşdur.

“Kəşkül” qəzeti bütün fəaliyyəti boyu köhnə adət və ənənələrin əleyhinə çıxaraq təlim-tərbiyənin Avropa sayağı yenidən qurulmasını qızğın təbliğ edirdi. Qəzetdə bu ideyanı təbliğ edən publisist yazılarla bərabər bəzən şeir də verilirdi.

“Kəşkül” qəzeti ana dilinin tədrisini həmişə ön plana çəkmişdi. Qəzet bütün fəaliyyəti ərzində ədəbi dilimizin saflığı uğrunda çalışmış, oxucularında ana dilinə məhəbbət hissi aşılamışdır. C.Ünsizadə hələ qəzetin nəşrinə başlamazdan əvvəl yazırdı ki, “Kəşkül” azərbaycanlıların “söyləyib danışdığı dildə” nəşr olunacaqdır.

“Kəşkül” sonralar da onun fars dilində çıxarılmasını tələb edənlərə deyirdi ki, “bizə məktub yazan dostumuz bunu düşünməlidir ki, türklər (azərbaycanlılar – Ş.Q.) farsca bilməzlər. Qəzetin sadə azərbaycanca təb’ və nəşr olunması faydalıdır”.

Bu prinsipə qəzet axıra kimi əməl etmişdi. Ona görə də “Kəşkül”ün dili özündən əvvəlki qəzetlərin, xüsusən “Ziya” və “Ziyayi-Qafqaziyyə” qəzetlərinin dilindən fərqlənirdi. O, belə bir ideyanı təbliğ edirdi ki, insan birinci növbədə öz ana dilini mükəmməl öyrənməlidir. Çünki “təcrübə olunmuşdur ki, insan öz dilini nə qədər bilmiş olsa başqa dilləri də bir o qədər biləcəkdir”.

“Kəşkül” qəzetinin 1890-cı il 115-ci nömrəsində “Azərbaycanlı” imzası ilə “Avam gəzmək yuxu yatmaqmı dedin?” adlı bir felyeton dərc olunmuşdur. Bu felyeton onun mühərrirlərinin millət haqqındakı təsəvvürlərini müəyyən etmək üçün çox xarakterikdir. Həmin felyeton Tiflis vağzalında rastlaşan bir azərbaycanlı ilə bir nəfər əcnəbi arasındakı mükalimədən ibarətdir. Hər şeylə maraqlanan əcnəbi azərbaycanlıdan soruşur:

“– Sən nə millətdənsən?

– Müsəlmanam.

– Xeyr, mən soruşdum nə millətdənsən?

– Müsəlmanam, deyirəm.

– Əfəndim, millət ayrı, din ayrı. Bildim dininiz islamdır, ancaq istəyirəm biləm millətiniz nədir?

Bu suala nə cavab verim? Bilirəmmi mən hansı millətdənəm? Bizim molla, ya bizim axund görəsən bilirmi?

Keçi saqqal əcnəbi kiridiyimi görüb başladı:

– Əfəndim, ərəb, fars, türk, hind, əfqan və qeyri bunların hamısı islamdırlar. Ancaq hər birisinin milləti ayrıdır. Mən özüm katolik dinindənəm, ancaq millətim italyandır.

– Doğru buyurursunuz, əfəndim, ancaq eyib də olsa gərək dürüşt ərz edim, mən bilmirəm ki, mən nə millətdənəm.

Əcnəbi azərbaycanlını başa salır ki, onun milliyyəti azərbaycanlıdır.

– Əfəndim, bizə nə millət buyurdunuz?

– Azərbaycan milləti, əzizim, Azərbaycan.

– Həqiqət, əvvəl dəfədir ki, eşidirəm bizə Azərbaycan deyirlər. Eşitmişəm ki, İranda, Arazın o tayında bir Azərbaycan adlı məmləkət var.

– Bəli, o məmləkətin tayfası siz ilə birlikdə Azərbaycan millətidir. Siz qədim tayfasınız. Sizin tarixnamələrdə neçə-neçə hekayələriniz var... Təəccüblüdür ki, sizin bu əhvalatlardan xəbəriniz yoxdur”.

Göründüyü kimi, məqalə müəllifi “millət ayrı, din ayrı” deməklə, millətin artıq yaranmasına işarə edir. “Kəşkül”dən əvvəl biz belə fikrə rast gəlmirik. “Ziya” və “Ziyayi-Qafqaziyyə” qəzetlərində “Azərbaycan” sözü ancaq coğrafi mənada işlədilmişdi.

“Kəşkül” qəzeti bədii ədəbiyyat məsələləri ilə müntəzəm məşğul olurdu. Qəzetdə ədəbiyyata aid ayrıca şöbə açılmışdı. Burada ədəbiyyat məsələləri işıqlandırılırdı. Qəzetin səhifələrində yerli həyatı əks etdirən realist ədəbi əsərlər çap olunurdu. “Kəşkül” keçən əsrin sonlarında Azərbaycan realist ədəbiyyatının inkişafında müəyyən müsbət rol oynamışdır…

“Kəşkül” qəzeti ədəbiyyat və mədəniyyətin demək olar ki, bütün sahələrinə toxunmuşdur. Onun səhifələrində irihəcmli poemalar, səhnə əsərləri, rus, Avropa və Şərq ədəbiyyatından tərcümələrlə bərabər, lirik şeirlər, nikbin ruhlu qəzəl və qəsidələr, uşaq şeirləri, teatr resenziyaları da dərc edilirdi.

“Kəşkül” qəzetinin ədəbiyyat sahəsindəki fəaliyyəti Azərbaycan realist yazıçılarının əsərlərini dərc etməklə məhdudlaşmırdı. O, rus və Avropa ədəbiyyatının, qardaş xalqlar ədəbiyyatının Azərbaycanda təbliği ilə müntəzəm məşğul olurdu. O, keçən əsrdə Azərbaycan oxucularını ilk dəfə Avropa ədəbiyyatının klassik əsərləri ilə tanış etməyə başladı.

Qəzetin bədii tərcümə sahəsində ən fəal mühərrirlərindən biri olan G.Kəngərlinski “Kəşkül”də dərc etdirdiyi məqaləsində realist ədəbiyyata daha çox fikir verməyi tələb edirdi...

Qəzet bədii tərcümə sahəsində getdikcə geniş fəaliyyət göstərərək onu daha da inkişaf etdirmişdir. Hüqonun

Gördüm gəzinir çəməndə canan
Zülfü dağınıqdı, pay üryan –

beytilə başlanan şeiri, Şillerin “Məkr və məhəbbət” əsəri, “Qanlı gecə” adlı roman ilk dəfə Azərbaycan dilində “Kəşkül”ün səhifələrində dərc olunmuşdur…

Azərbaycan və Şərq ədəbiyyatı klassiklərini qeyri-Azərbaycan oxucularına tanıtmaq üçün “Kəşkül”ün fəaliyyəti böyük idi. Qəzet həmin klassiklərin şeirlərindən tərcümə elədiyi parçaları orijinalı ilə birlikdə öz səhifələrində dərc edirdi. Qəzetin bu təşəbbüsünə o zaman Tiflisdə sürgündə olan Ukrayna yazıçısı N.İ.Qulak da qoşulmuş və bir sıra faydalı işlər görmüşdür. Şərq dillərinə, o çümlədən Azərbaycan dilinə yaxından bələd olan Qulakın tərcüməçilik fəaliyyəti “Kəşkül” qəzeti ilə məhdudlaşmır. O, hələ 1882-ci ildə M.F.Axundov komediyalarını alman dilinə tərcümə etmişdir.

C.Ünsizadə ilə əlbir işləyən N.İ.Qulak Füzulinin “Leyli və Məcnun” poemasını 1887-ci ildə ilk dəfə rus dilinə tərcümə etmiş və “Kəşkül” mətbəəsində ayrıca kitabça şəklində buraxmışdı. “Kəşkül”ün ətrafına toplanmış mütərəqqi ziyalılar keçən əsrdə Azərbaycan ədəbiyyatı tarixində tərcümə işini xeyli inkişaf etdirmişlər.

“Kəşkül” qəzeti ədəbiyyatımızın başqa bir sahəsinə – teatr resenziyasına da biganə qalmamışdır… 1887-ci ildə M.F.Axundovun Tiflis həvəskarları tərəfindən tamaşaya qoyulan “Müsyo Jordan və Dərviş Məstəli şah” komediyası haqqında dərc olunan məqalə bir teatr resenziyası kimi çox maraqlıdır.

Redaksiya həmin resenziyanın axırında belə bir qeyd vermişdir: “Tamaşaçılarımız teatr elminə nə qədər hazırlaşmış isələr, oyunçularımız da onları ancaq o dərəcədə məmnun edə bilərlər. Yoxa lənət deməyiblərmi?”.

“Kəşkül” qəzeti keçən əsrin axırlarında nəşrə başlayaraq, təxminən, 9 il fəaliyyət göstərmişdir. Bütün bu müddət ərzində o, elm və sənətin müxtəlif sahələrinin təbliği ilə, rus və Avropa mədəni nailiyyətlərinin Azərbaycanda yayılması ilə məşğul olmuşdu. Bununla bərabər, o, dövrünün dini təsirindən tamamilə uzaqlaşa bilməmişdi. Bəzən onun səhifələrində din xadimlərinin, mürtəce ünsürlərin, köhnə ədəbi cərəyan nümayəndələrinin çıxışlarına da rast gəlirik. Lakin bunlar onun mütərəqqi ideyasına, məfkurəvi istiqamətinə ciddi təsir göstərə bilməmişdir. “Kəşkül” qəzeti xalqımızın tarixində böyük bir səhifə açmışdır.

***BDU-nun İctimai elmlər seriyası, № 5, 1961***

Üzeyir Hacıbəyli – 140

# Dahi bəstəkarın mənəvi övladı

**Musiqişünas, publisist Səadət Qarabağlı 40 ildən çoxdur ki, dünya şöhrətli bəstəkarımız Üzeyir Hacıbəylinin həyat və fəaliyyətini yorulmaq bilmədən araşdırır. Bu səbəbdən Səadət xanım ölkəmizdə üzeyirbəyşünas kimi tanınır. Elmi-publisistik yaradıcılığını Üzeyir Hacıbəyliyə həsr etmiş Səadət Qarabağlı uzun illər dahi bəstəkarın ev-muzeyinə rəhbərlik edib, sonra Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının musiqi hissə müdiri olub.**

**"Üzeyir Hacıbəyovun yaradıcılığı həmişə insanları vətənpərvərliyə dəvət edir. Biz bu gün də Üzeyir bəy Hacıbəyovun xatirəsini yad ediriksə, onun yaradıcılığını bir daha yüksək qiymətləndiririksə, bu yaradıcılığın ən yüksək nöqtəsi olan vətənpərvərlik hisslərini özümüzdə daha da artırmalıyıq, daha da inkişaf etdirməliyik. Özümüzü bu hissiyyatlarla gələcəyə hazırlamalıyıq".**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



Onunla BDU-nun jurnalistika fakültəsində (qiyabi) tələbə yoldaşı olmuşuq. Səmimi, mehriban bir qız idi. Anası Ulduzə Haqverdiyeva da jurnalistdir, AJB-də və "Müxbir" jurnalında işləyirdi. Səadət universitetə qədər Musiqi Texnikumunun fortepiano fakültəsini, özü də fərqlənmə diplomu ilə bitirmişdi. Üzeyir Hacıbəylinin ev-muzeyində işləyirdi. Onunla bağlı 800-dən artıq yazısı, 10-dan çox kitabı çıxıb. "Üzeyir Hacıbəyov" Ensiklopediyasının müəlliflərindən biridir. Yubiley ərəfəsində söhbətimiz zamanı dedi:

– Prezident İlham Əliyevin Şərqdə ilk operanın yaradıcısı, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə sərəncam imzalaması dövlət başçısının onun ölməz irsinə verdiyi çox yüksək dəyərdir. Çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş Üzeyir bəy Hacıbəylinin yubileyləri həm sağlığında, həm də dünyasını dəyişdikdən sonra yüksək səviyyədə keçirilib. Hətta 100 illiyi UNESCO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunub. Ümummilli lider Heydər Əliyev 1995-ci ildə bəstəkarın 110 illik yubileyi günlərində hər il sentyabr ayının 18-də "Üzeyir Musiqi Günü"nün təsis edilməsi haqqında xüsusi fərman imzalamışdır. 140 illik yubileyini qeyd edəcəyimiz dünya şöhrətli bəstəkarın əzəmətli və möhtəşəm əsərləri Azərbaycan musiqi mədəniyyətinin inkişafına bu gün də güclü təkan verir, gənclərimizin vətənpərvərlik ruhunda yetişmələrində önəmli rol oynayır.

Yeri gəlmişkən onu da qeyd edim ki, sözügedən fərmanda məhz "Üzeyir Musiqi Günü" yazılıb. Təəssüf ki, media işçiləri, bəzi musiqişünaslar, səlahiyyətli şəxslər bu günün adını təhrif edərək "Milli Musiqi Günü" deyir və yazırlar.

**– Səadət xanım, demək olar ki, həyatınızı bütünlüklə Üzeyir Hacıbəyli irsinə həsr etmisiniz. Bu bağlantı haradandır?**

– Mənim Üzeyir bəy Hacıbəyli ilə qeyri-adi, fikrimcə, müqəddəs bir bağlantım var. Əvvəla, bizim Üzeyir bəygillə qohumluğumuz mövcuddur. Köklü şuşalılar hamısı bir-birilərinə qohumdurlar. İkincisi, heç özüm də bilmədən uşaqlıqdan Üzeyir bəyə bağlanmışam. Anam mənə xalq musiqilərimizlə yanaşı, Üzeyir bəyin əsərlərinin sədaları ilə layla çalardı. Bax, bu gözəl, ruh oxşayan musiqilərlə böyümüşəm. İlk dəfə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində imtahanı məndən Üzeyir bəyin dayısı Ağalar bəy Əliverdibəyovun oğlu, məktəbin direktoru, bəstəkar Nazim Əliverdibəyov götürmüşdü... Üzeyir bəyin tələbəsi, məşhur caz ustası Vaqif Mustafazadənin anası Zivər Əliyeva da mənə dərs deyib. Bir ildən sonra atamın işi ilə bağlı (o, hüquq-mühafizə orqanlarında çalışırdı) biz Füzuli rayonuna köçməli olduq. Füzulidə yenə Üzeyir bəyin tələbəsi, bəstəkar, məşhur "Naxçıvan" mahnısının müəllifi Məmməd Cavadovdan dərs almışam.

Nəhayət, tale məni 1979-cu ildə Üzeyir bəy Hacıbəylinin ev-muzeyinə gətirdi. Ora məqalə yazmaq məqsədi ilə getmişdim. Muzeyin direktoru Ramazan Xəlilov Üzeyir bəyin baldızı oğlu idi, həm də uzun illər onun şəxsi katibi olmuşdu. Mənim suallarımı Ramazan bəy həvəslə və ətraflı cavablandırdı. Söhbətimizin sonunda isə məni muzeydə işləməyə dəvət elədi. Böyük məmnuniyyətlə razılaşdım. Bundan sonra düz 25 il 5 ay həmin ev-muzeyində işlədim... Üzeyir bəy Hacıbəyliyə olan bağlılığım bu günə qədər davam edir və ömürlükdür.

**– Demək olar ki, yarım əsr olar, Üzeyir bəyin irsinin təbliği ilə məşğulsunuz. Bu illər ərzində qəzet və jurnallarda, eləcə də saytlarda yüzlərlə məqaləniz dərc edilib, radio və televiziya kanallarında çoxsaylı müsahibələriniz olub, xaricdə, o cümlədən Türkiyənin İstanbul şəhərində Üzeyir bəyin həyat və fəaliyyəti ilə bağlı xeyli məruzə və çıxışlar etmisiniz. Kitablarınız da var. Bu barədə də danışardınız.**

– Üzeyir bəyin "Arazbarı" simfonik əsərini, "Aşıqsayağı" triosunu (hər ikisinin redaktoru mərhum bəstəkar, Üzeyir bəyin əmisinin nəticəsi İsmayıl Hacıbəyovdur) partituralarını nəşr etdirmişəm. "Şöhrət tacı" (Ramazan Xəlilovla birlikdə), "Üzeyirbaycan" adlı şeirlər və poemalar toplusu, "Üzeyir bəy Hacıbəylinin publisistikasında musiqi məsələləri" (l, ll, lll nəşrlər), "Üzeyir bəy Hacıbəyov və "Molla Nəsrəddin" (Tahir Aydınoğlu ilə) kitablarını, "Ustadı xatırlarkən..." SD diskini (Gülbəniz Hüseynli ilə) ərsəyə gətirmişəm. "Üzeyir Hacıbəyov" Ensiklopediyasının hazırlayanlardanam. Əlbəttə, Hacıbəyli irsi ilə yanaşı, başqa yaradıcılıq işlərim də var.

**– Üzeyir bəyə ermənilərin təzyiqləri, maneçilikləri barədə də çox yazmısınız...**

– Böyük bəstəkara nankor qonşularımız tərəfindən hər zaman təzyiqlər olub. Çünki qaragüruh qövm onun dahiliyini həzm edə bilmirdi. Hər vəchlə onu aradan götürməyə çalışırdılar. Hələ 1905-cü ildə Ü. Hacıbəyli Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra dərs dediyi Hadrut kəndində yaşayan ermənilər ona qəsd etmək istəyiblər. Bundan duyuq düşən kəndin azərbaycanlı sakinləri Üzeyir bəyi gecə ikən at belində Yevlaxa apararaq onu qatarla Bakıya yola salıblar. Bakıda çalışdığı dönəmlərdə də ermənilər Üzeyir bəyə sui-qəsd etmək istəyiblər. Hətta 1918-ci il hadisələri zamanı dahi bəstəkarın evi (hazırkı ev-muzeyinin binası) hay quldurları tərəfindən güllələbaran edilib. Xoşbəxtlikdən Üzeyir bəyə xətər toxunmayıb. Gözəgörünməz müqəddəs əl, eləcə də Nəriman Nərimanov, Mir Cəfər Bağırov onu hər türlü bəlalardan qoruyublar.

Amma 1939-cu ildə erməni musiqiçilərinin SSRİ xarici işlər naziri Molotovun adına göndərdikləri şər və böhtan dolu teleqram incə qəlbli, həssas duyğulu sənətkarın səhhətinə hədsiz dərəcədə pis təsir edib. Bu azmış kimi, Osipyan soyadlı erməni həkim Üzeyir bəyi müalicə etməyə təhkim edilib. O da bilərəkdən düzgün diaqnoz qoymadan insulin iynəsi təyin edib və ciddi pəhriz saxlamağı "məsləhət" görüb. Bunun nəticəsində Üzeyir bəy bir ayda 18 kilo çəki itirib, orqanizmi zəifləyib və ürəktutmaları başlayıb. Bunu görən Azərbaycanın dövlət və hökumət rəhbərləri Üzeyir bəyi müalicə üçün Yessentukiyə, sonra Moskvaya göndəriblər. Stalinin göstərişi ilə Üzeyir bəy Kreml xəstəxanasına yerləşdirilib, orada da müayinə edilib və müalicə alıb. Lakin bütün bunların heç bir xeyri olmayıb. Çünki oradakı həkimlərin də təsdiq etdikləri kimi, dahi bəstəkarımız Bakıda erməni həkim tərəfindən düzgün müalicə olunmamışdı. Bu da unudulmaz sənətkarımızın 63 yaşında dünyasını dəyişməsinə səbəb olub. Yəni, erməni xisləti öz işini görüb. Mən bütün bunlar barədə ürək ağrısı ilə yazmışam.

**– Sənətsevərlər sizi həm də Üzeyir bəyin mənəvi qızı adlandırırlar. Bunu sizə verilən dəyər kimi qiymətləndirmək olarmı?**

– Bu, sənətsevərlərimizin, ziyalılarımızın mənə verdikləri çox böyük dəyərdir. Tam səmimi deyirəm, Üzeyir bəyin mənəvi qızı adlandırılmağım mənim üçün həm böyük şərəfdir, həm də bütün fəxri adlardan, elmi dərəcələrdən və titullardan qiymətlidir. Buna görə Allahıma və bu ada məni layiq bilənlərə minnətdaram. Ömrümün sonuna kimi bu şərəfli adı qoruyub saxlamağa çalışacağam.

**– Qarşıdan gələn yubileyə töhfəniz olacaqmı?**

– Sənət dühamızın həyat və fəaliyyətinin müxtəlif sahələrindən bəhs edən daha bir kitab çap etdirmək niyyətindəyəm.

**P.S:** Səadət xanımın ulu babası Mirzə Haqverdi Məşədi Ocaqverdi oğlu Qarabağın sonuncu hakimi Mehdiqulu xanın mirzəsi olub. Xan Mirzə Haqverdi Qarabağiyə Ağcabədidə kənd bağışlayıb. Bu kənd indi Haqverdi Mirzə adı ilə tanınır. Amma Mirzə Haqverdi bir olaya görə inciyərək sarayı tərk edib. Əhvalat belə olub: bir gün o, sarayda oradakı uşaqlar mirzəlik otağına girir, qələmi ilə oynayaraq onu sındırırlar. Mirzə saraya gələndə qələminin sındığını görür, bundan çox kədərlənir və saraydan birdəfəlik üz döndərir. Mehdiqulu xan dəfələrlə onun yanına minnətə adam göndərsə də, Mirzə Haqverdi Qarabaği bir daha saraya dönmür. Deyir ki, qələmimə hörmət olmayan yerdə mənim işim yoxdur! Bundan sonra bir daha saraya ayaq basmır.

Onun kötükcəsi Səadət Qarabağlı da sənətin, qələmin qədrini bilən müəllifdir. Ev-muzeyinə direktorluqdan başqa muzeyə keçirilməsi barədə təklifdən imtina edərək həmin işdən çıxıb. Hazırda təqaüddə olsa da, eyni həvəslə Üzeyirbəyşünaslığını davam etdirir.

***Müsahibəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# "Qaravəlli" Sumqayıt səhnəsində

**Mədəniyyət Nazirliyinin "Öyrədərək öyrənirəm" layihəsi çərçivəsində Sumqayıt Dövlət Dram Teatrında Xalq yazıçısı Anarın məşhur "Qaravəlli" əsəri səhnəyə qoyulub.**



Gənc rejissor Abdulla Elşadlının quruluş verdiyi tamaşanın premyerası uğurlu alınıb. Meydan tamaşası üslubuna xas detallar, müəllifdən gələn ironiya, yumor, rejissor yozumunda uğurlu səhnə həllini tapıb. Truppa üzvləri hərəyə bir neçə obraz yaratmalarına rəğmən, tam fərqli oyun nümayiş etdiriblər. Rollarda Əməkdar artist İzaməddin Bağırov, aktyorlar İlham Səfərli, Habil Xanlarov, Kamran Muradlı, Şəmistan Süleymanlı, İlahə Səfərova, Elmir Mehdiyev, Aynur Hümbətova, Ramazan Xanlarov, Əmrah və Etibar Əmirov oynayıblar.

Səhnə əsərində əsas mövzu etinasız insanların bir fağır, zəif, ehtiyaclı insanı necə linç edib, bütün problemləri ona yükləyib və sonda onu mənən, ruhən cismən yerə gömdüyündən bəhs edilir.

Tamaşanın bədii tərtibatı Nizami Daşova, musiqi tərtibatı Elay Xasıyevə, ritmika Ramazan Xanlarova aiddir. Rejissor assistenti Rəvan Hüseynzadə, rejissor köməkçisi Fazilə Rzayevadır.

***XQ***

Yusif Məmmədəliyev – 120

# Dünya şöhrətli alimin xatirəsinə ehtiram



**AMEA-nın Rəyasət Heyətinin növbəti iclasında Prezident İlham Əliyevin "Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında" 5 iyul 2025-ci il tarixli sərəncamının icrasından irəli gələn vəzifələr müzakirə edilib.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Yusif Məmmədəliyev Azərbaycan Milli Elmlər Akademiyasının təsisçilərindən biri olub. Dövlət başçısının sərəncamında qeyd edildiyi kimi, o, Azərbaycan elminin yetişdirdiyi parlaq simalardandır. Milli neft-kimya elminin dünyaca məşhur siması akademik Yusif Məmmədəliyevin həyatının hər bir şəxs üçün nümunə olduğunu deyən AMEA rəhbəri onun görkəmli elm təşkilatçısı və pedaqoq kimi yetişdirdiyi kadrların ölkəmizin iqtisadi, elmi-mədəni inkişafına misilsiz töhfələr verdiklərini bildirib.

Akademik İsa Həbibbəyli daha sonra dövlət başçısının ilin əvvəlində imzaladığı Milli Elmlər Akademiyasının 80, eləcə də akademik Mustafa Topçubaşovun 130 və akademik Yusif Məmmədəliyevin 120 illik yubileyləri haqqında sərəncamlarının ölkə rəhbərinin Azərbaycan elminə və ziyalısına diqqət və ehtiramının təzahürü olduğunu deyib və AMEA-nın kollektivi adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

İclasda akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı qərar qəbul olunub.

***XQ***

Seyid Əzim Şirvani – 190

# Seyid Əzimin poetik əzmi

**Prezident İlham Əliyev aprelin 4-də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli şair və böyük maarif xadimi Seyid Əzim Şirvaninin anadan olmasının 190 iliyinin qeyd olunması ilə bağlı sərəncam imzalayıb.**



...Mərhum xanəndəmiz Hacıbaba Hüseynovun bağ evində ondan televiziya üçün müsahibə götürürdük. Həmin görüşdə bildik ki, xanəndə həm də əruz vəznində yazan gözəl şairdir. Bunu ona deyəndə:

– Əstəğfurullah, – dedi, – Füzulinin, Seyid Əzimin adı olan yerdə biz yoxuq. Sonra Seyid Əzimdən "xoruz səsi eşitməyən" qəzəllər söylədi, ona yazdığı nəzirələri də dilə gətirdi. Hacıbaba Hüseynov Seyid Əzimdən sonsuz sevgi ilə danışaraq böyük klassiki Azərbaycan əruzunun parlaq ulduzu kimi dəyərləndirdi. Bildirdi ki, şairin yazdıqları, xanəndələrin oxuduqları onu bizlərə sanki müasirimiz kimi təqdim edir.

Doğrusu, həmin görüşə qədər Seyid Əzim Şirvani irsinə orta məktəb dərsliklərinə və əlavə olaraq oxuduğumuz bəzi mənbələrə görə az-çox bələd idik. Sonra isə şairin yaradıcılığı ilə daha çox maraqlandıq və söylənənlərin nə qədər doğru olduğunu gördük.

Seyid Əzim Şirvani 1835-ci il iyulun 9-da Şamaxıda ruhani ailəsində anadan olub. Atasını erkən itirib. Ana babası Molla Hüseyn dul qalmış qızını və nəvəsini götürüb Dağıstana, dini icmasına başçılıq etdiyi Yaqsay kəndinə aparıb. O, "bala seyid"ə öz doğma övladı kimi baxır, təhsili ilə də şəxsən özü məşğul olurdu. 18 yaşı olanda Şirvana qayıdan Seyid Əzim millətin mədəni-maarif üzrə geriliyi üzündən qələmə sarılıb, fanatizmi tənqid etməyə başlayıb. Sonra İraqda və Suriyada ali ruhani təhsil alsa da, gənc şair dünyəvi elmlərə də böyük maraq göstərib. Şamaxıda Ünsizadə qardaşlarının təşəbbüsü ilə açılmış "Məclis" adlı yeni üsullu məktəbdə dərs deyib. Məhz burada Mirzə Ələkbər Sabir və Sultan Məcid Qənizadə onun şagirdləri olublar. Ömrünün sonunadək müəllimlik edən maarifpərvər şairi gözü götürməyən bəzi mollalar onu hörmətdən salmaq üçün canfəşanlıq edib, şairi "kafir" adlandırıb. Amma bütün bunlar Seyid Əzimin tarixə düşməsini əngəlləyə bilməyib.

Azərbaycan ədəbi tarixində ilk dəfə Seyid Əzim "Uşaqların baharı" adlı dərslik yazaraq şagirdlərə öz tarixi və mədəni irsinə görə qürur duymaq, vətəninə layiqli övlad olmaq ideyalarını təlqin edib. Lakin bu, çar hökumətini ehtiyatlandırıb, odur ki, dərslik yığışdırılıb.

Şair yaradıcılığı boyu Şərq poeziyasının çoxəsrlik ənənələrini yüksək sənətkarlıqla davam etdirib. Realist satiralarında dövrün aktual məsələlərinə kəskin münasibət bildirib. Onu dövrünün böyük realist şairi kimi tanıdan "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Alim oğul ilə avam ata", "Qafqaz müsəlmanlarına xitab" və s. satiralarıdır.

O, didaktik əsərlərində humanizm ideyalarını təbliğ edib. Əsərləri içərisində xüsusi yer tutan öyüd-nəsihət ruhlu mənzum hekayələr şairin maarifçi şeirləri ilə birləşir. Hələ orta məktəb illərindən bildiyimiz bu kimi nümunələr indi də yaşarıdır:

**Cəfər, ey nuri-dideyi-Seyyid,**
**Qönçeyi-növrəsideyi-Seyyid!**
**İttifaq eylə dust ilə hər an,**
**İttifaq ilə əmr olur asan...**

Seyid Əzimin əsərləri arasında müxtəlif Şərq mənbələrindən etdiyi tərcümələr, Sədi, Hafiz və Füzuliyə yazdığı nəzirələr də var. Lakin, əsasən, öz qəzəlləri ilə tanınıb. Şirvani yaradıcılığının çox hissəsi lirik janrda yazılmış orijinal əsərlərdən ibarətdir.

**Gecə gördüm səni,**
**ey afəti dövran, yuxuda,**
**Ki, elərdin mənə yüz**
**lütfi-firavan yuxuda.**

Zəngin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə qızıl səhifələr əlavə edən müəllim-şairin bədii irsi biri Azərbaycanca, digəri isə farsca iki böyük külliyyatdan ibarətdir. Seyid Əzim bir çox şairin ilham mənbəyi və mənəvi müəllimi olub. Firidun bəy Köçərli onu "Qafqaz şüərasının sərəmədi" adlandırıb və Azərbaycan ədəbiyyatında tutduğu mövqeyə xüsusi önəm verib. O, Bakı, Şuşa, Gəncə, Qazax, Lənkəran, Təbriz, Ərdəbil, Dərbənd və Şəki bölgələrinin şairləri ilə sıx əlaqədə olub, təzkirələrində onların yaradıcılığından geniş bəhs edib.

Məlumdur ki, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev Seyid Əzimin yaradıcılığına böyük maraq göstərmiş, onu Bakıya dəvət etmiş və şeirlərini dinləmişdir. Seyid Əzimin oğlu Seyid Cəfərin söylədiyinə görə, Tağıyev onun külliyyatını çap etdirmək istəsə də, senzura və bəzi ruhanilərin müqaviməti buna mane olmuşdu. Amma sonradan bu külliyyat Tehranda nəşr olunmuşdu.

"Seyyida, ölmərəm, aləmdə səsim var mənim" – deyən Seyid Əzim Şirvaninin səsi bu gün də eşidilməkdə, könüllərə nur saçmaqdadır.

***Ə.DOSTƏLİ***
***XQ***

“Xalq qəzeti” üçün

# Türkiyəli jurnalistin Azərbaycan təəssüratı

## *Bakı Qafqazın parlaq ekranıdır*

**Ötən ayın sonlarında Türkiyə Jurnalistlər Konfederasiyasının xarici əlaqələr üzrə baş əlaqələndiricisi, tanınmış jurnalist Mövlüd Yeni ölkəmizdə qonaq olmuş, Bakıda və bölgələrdə bir sıra maraqlı görüşlər keçirmişdir. Mövlud bəy Vətənə qayıtdıqdan sonra səfər təəssüratlarını qardaş ölkənin bir neçə mətbu nəşrində dərc etdirmişdir. Səfər zamanı redaksiyamızın da qonağı olmuş, qəzetimizə müsahibə vermiş jurnalist Mövlud Yeni türkiyəli oxuculara bildirib:**





– Türk turizminin tanınmış simalarından Halil Durunun dəvəti ilə bugünlərdə səfər etdiyim Bakı şəhəri məni çox təəccübləndirdi. 8 il əvvəl – Novruz bayramı ərəfəsində Azərbaycan Respublikası Milli Məclisinin deputatı, mərhum Qənirə Paşayevanın qonağı olduğum bu şəhər daha da inkişaf edərək yeni bir səviyyəyə yüksəlib. Bakı indi yalnız paytaxt deyil – o, Qafqazın parlaq ekranıdır!

Təcrübəli həmkarlarım Emin Dəmir və Özkan Altıntaş da eyni təəssüratı bölüşdülər: Müasir memarlıq, muzeylər, nəhəng ticarət mərkəzləri, təmiz küçələr, ləziz mətbəx – Bakı artıq Dubayla müqayisə olunur və ondan heç də geri qalmır!

Azərbaycanı anlamaq üçün onu görmək, nəfəsini duymaq gərəkdir. Görmədən, getmədən danışmaq mümkün deyil. Xatırlatmaq istərdim ki, Halil Duru Azərbaycanda yalnız sadə bir otelçi deyil. Fikrimcə, o, Bakının turizm məkanı kimi tanınıb sevilməsi üçün fədakarcasına çalışan bir turizm elçisidir. Onun rəhbərlik etdiyi “Qafqaz Bakı Siti və Qafqaz Liman” otellərində yüksək servisi və qonaqpərvərliyi hiss etməmək mümkünsüzdür.

Halil Duru indiyədək Azərbaycanda 11 otel layihəsini həyata keçirib. Hazırda isə o bir qədər əvvəl qeyd etdiyim kimi, Bakının mərkəzində iki böyük mehmanxananı idarə edir. Onun fikrincə, vizasız, sadəcə, şəxsiyyət vəsiqəsi ilə səyahət imkanı türk turistlərinin Azərbaycana olan marağını xeyli artırıb. Amma bu istiqamətdə hələ çox iş görülməlidir.

Bu ilin ilk 5 ayında Azərbaycana Türkiyədən 175 min nəfər səfər edib. Halbuki hər il 5 milyon Türkiyə vətəndaşı yaxın-uzaq xarici ölkələrə tətilə gedir. Deməli, türk turistləriin Azərbaycana olan marağını artıqmaq lazımdır. Hazırda Azərbaycanda ən çox turist gələn ölkələr sırasında Rusiya liderdir, Türkiyə ikinci yerdədir. Amma Halil Duru və yerli turizmçilərin məqsədi sağlam rəqabət şəraitində Türkiyəni birinci yerə çıxarmaqdır!

Bəli, Azərbaycanın turizm potensialı genişdir – tarixi, mədəniyyəti, mətbəxi və təbiəti bu ölkəni fərqli, cazibədar bir məkan edir. Neft qədər dəyərli “bacasız sənaye” olan turizm iqtisadi yüksəlişin mühüm dayağına çevrilə bilər.

Bakı səfərimiz çərçivəsində jurnalist həmkarlarımızla da görüşdük. Azərbaycan xalqının Türkiyəyə olan sevgisi sözlə ifadə edilə bilməyəcək qədər dərin və səmimidir. “Türkiyəli” deyəndə, burada, sanki, zaman dayanır.

Əziz dostum, Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyevlə birlikdə mərhum Qənirə Paşayevanın məzarını ziyarət etdik, ruhuna dualar oxuduq. Umud bəyin təşəbbüsü ilə Türkiyə Jurnalistlər Konfederasiyası ilə Azərbaycanın ən böyük media təşkilatları arasında əməkdaşlıq protokolları imzalandı. Pandemiya və digər obyektiv səbəblər üzündənləngiyən layihələrimizi bərpa etməyi razılaşdıq.

“Xalq qəzeti”nin redaksiyasında unudulmaz görüşümüz oldu. Belə ki, burada baş redaktor Əflatun Amaşov, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid və populyar “Modern”az saytının rəhbəri Elşad Eyvazlı ilə gələcəyə dair planlar müzakirə olundu. Əmin oldum ki, iki ölkə jurnalistləri arasında daha sıx əməkdaşlıq üçün ortaq niyyət və istək var.

Azərbaycan turizmi haqqında yazmağa və təəssüratlarımızı bölüşməyə davam edəcəyik. Azərbaycandakı bütün dostlarımıza ürəkdən təşəkkür edirəm.

Unutmayaq: Bir olaq, birlikdə olaq! Yaşasın Türkiyə–Azərbaycan dostluğu!

***Çapa hazırladı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# ABŞ Rusiyaya qarşı “sarsıdıcı sanksiyalar”a keçir

## *Prezident Tramp isə Ukraynaya silah tədarükünü bərpa edir*



**ABŞ-da Rusiyaya qarşı növbəti ciddi sanksiya paketi gündəmə gəlib. Respublikaçı senator Lindsi Qrem Senatda prezident Donald Trampa əlavə səlahiyyətlər verəcək yeni qanun layihəsinin irəli sürüldüyünü açıqlayıb. Qanun layihəsi Rusiya ilə ticarət əlaqələrini davam etdirən və Ukraynaya dəstək göstərməyən ölkələrə qarşı 500 faizlik tariflərin tətbiqini nəzərdə tutur.**

“Ukrayna atəşkəsə və görüş çağırışlarına razılıq verib, lakin Putin sülh təşəbbüslərini hələ də rədd edir. Bu qanun layihəsi Trampın arsenalına əlavə vasitələr qatacaq və ona daha geniş təsir imkanı verəcək”, – senator Qrem sosial şəbəkədə bildirib. Senatorun sözlərinə görə, layihə artıq 85 qanunvericinin dəstəyini alıb və bu say artmaqda davam edir. Qrem bunun “Ukraynadakı qan tökülməsinə son qoymaq” üçün vacib addım olduğunu qeyd edib.

Ukrayna prezidentinin sanksiyalar üzrə nümayəndəsi Vladislav Vlasuykun sözlərinə görə, Lindsi Qremin təşəbbüs göstərdiyi qanun layihəsi yaxın gələcəkdə qəbul edilə bilər, lakin hazırkı formada deyil. O, ABŞ-da bu məsələ ilə bağlı, o cümlədən Trampın komandasında diskussiyaların davam etdiyini bildirib. Vlasuyk qeyd edib ki, ABŞ-ın İrana qarşı qəfil sanksiyaları təcrübəsindən yola çıxaraq, bu təşəbbüs də istənilən anda gerçəkləşə bilər.

Bununla yanaşı, Vaşinqton Ukraynaya hərbi yardımın bərpasına qərar verib. Müdafiə Nazirliyi prezident Trampın göstərişi ilə Ukraynaya yeni silah partiyası göndərəcək. Bu paketə “Patriot” zenit-raket sistemləri, HIMARS üçün GMLRS raketləri, “Stinger” tipli daşınan zenit-raket qurğuları, tank əleyhinə komplekslər və yüksək dəqiqlikli sursatlar daxildir.

“The Wall Street Journal” yazır ki, bu silahlar daha əvvəl müvəqqəti ixrac qadağasında idi. Yardımın bərpası Pentaqonun arsenalına yenidən baxmasından sonra mümkün olub. Ağ ev isə bu prosesi “standart ehtiyat yoxlaması” adlandırıb. Prezident Tramp bu barədə iyulun 4-də Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığında da məlumat verib. O, yaranmış fasiləyə görə məsuliyyət daşımadığını bildirib və ABŞ-ın Ukraynaya “bacardığı qədər” silah göndərəcəyini vurğulayıb. Zelenski isə bu danışığı “indiyə qədərki ən məhsuldar” adlandırıb və Trampdan daha geniş hava hücumundan müdafiə sistemləri istəyini gündəmə gətirib.

Eyni zamanda, Donald Tramp İsrailin Baş naziri Benyamin Netanyahu ilə keçirdiyi mətbuat konfransında Rusiya Prezidenti Vladimir Putinlə son telefon danışığını “məyusedici” adlandırıb. O bildirib ki, Putini Ukrayna müharibəsini dayandırmağa razı salmağa çalışsa da, tərəflər arasında heç bir real irəliləyiş əldə olunmayıb. Kreml tərəfi isə qeyd edib ki, münaqişənin diplomatik yolla həlli variantı hələ də gündəmdədir, lakin Moskva öz hərbi məqsədlərindən imtina etmir.

Beləliklə, ABŞ-ın yeni qanun layihəsi Tramp administrasiyasının Ukraynaya daha güclü dəstək verəcəyini və Rusiyaya qarşı qlobal iqtisadi təzyiqləri genişləndirməyə hazır olduğunu göstərir. Eyni zamanda, bu təşəbbüs ABŞ-ın Rusiya ilə geosiyasi qarşıdurmasında daha aqressiv mərhələyə keçdiyinə dair ciddi siqnal kimi qiymətləndirilir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


“SUMQAYIT – ÇÖRƏK”
ATSC-nin 2024-cü il dekabrın 31-nə mühasibat balansı

| | | manatla |
|---|---|---|
| **AKTİVLƏR** | **31 dekabr 2023-cü il** | **31 dekabr 2024-cü il** |
| Əsas vəsaitlərin dəyəri | 2272067 | 2278406 |
| Köhnəlmə | 1308885 | 1313885 |
| Qalıq dəyəri | 963182 | 964521 |
| Qeyri - maddi aktivlər | 0 | 0 |
| **I BÖLMƏ ÜZRƏ CƏMİ** | **963182** | **964521** |
| İstehsal ehtiyatları | 154280 | 125943 |
| Azqiymətli inventarlar | 90158 | 118290 |
| Köhnəlmə | 45079 | 60779 |
| Qalıq dəyəri | 45079 | 57511 |
| Hazır məhsul | 0 | 0 |
| Alınmış mallara görə ƏDV | 0 | 0 |
| **II BÖLMƏ ÜZRƏ CƏMİ** | **199359** | **183454** |
| Mallara, iş və xidmətlərə görə debitor borcları | 0 | 0 |
| Yüklənmiş mallar | 173915 | 203509 |
| Büdcə | 62976 | 11394 |
| Sair debitorlar | | 10000 |
| Verilmiş avanslar | 83390 | 9080 |
| Kassa | 0 | 0 |
| Hesablaşma hesabı | 53478 | 22359 |
| Yolda olan pul vəsaiti | 0 | 0 |
| Valyuta hesabı | 20 | 33 |
| **III BÖLMƏ ÜZRƏ CƏMİ** | **373779** | **256375** |
| Zərərlər-ötən illərdə | 0 | 0 |
| Hesabat ilində | 0 | 0 |
| **Cəmi aktivlərin dəyəri** | **1536320** | **1404350** |
| **PASSİVLƏR** | | |
| Nizamnamə kapitalı | 762583 | 762583 |
| Əlavə kapital | 89618 | 89618 |
| Ehtiyat kapitalı | 0 | 0 |
| Yığım fondu | 0 | 0 |
| Büdcə | 0 | 0 |
| İstehlak fondu | 154743 | 145448 |
| Mənfəət | 0 | 246891 |
| İstifadə edilmiş mənfəət | | |
| İstifadə edilməmiş mənfəət | | |
| **I BÖLMƏ ÜZRƏ CƏMİ** | **1006944** | **997649** |
| Qısamüddətli bank kreditləri | 168820 | 175000 |
| Mallara, iş və xidmətlərə görə kreditor borcları | 10444 | 63099 |
| Əmək haqqı ödənişləri üzrə | 86483 | 82881 |
| Sosial sığorta üzrə | 27404 | 23874 |
| Sair kreditorlar | 4387 | 15180 |
| Təsisçilərlə hesablaşmalar | 231838 | 46667 |
| **II BÖLMƏ ÜZRƏ CƏMİ** | **529376** | **406701** |
| **Cəmi passivlərin dəyəri** | **1536320** | **1404350** |



Azərbaycan İlahiyyat İnstitutu

*dinşünaslıq kafedrasının müdiri vəzifəsinə*

MÜSABİQƏ ELAN EDİR

Kafedra müdiri vəzifəsinin tutulması üçün müsabiqədə iştirak edən vətəndaş aşağıdakılara malik olmalıdır:

- kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına;
- elmi ad və elmi dərəcəyə;
- ən azı 5 il elmi-pedaqoji təcrübəyə.

Müsabiqədə iştirak etmək istəyənlər ərizə ilə institutun rektoruna müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

• kadrlar uçotunun şəxsi vərəqəsi;
• tərcümeyi-hal;
• ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
• elmi və elmi-metodiki işlərin siyahısı;
• kafedranın inkişafı ilə bağlı namizədin platforması.

Sənədlər elan dərc olunduqdan sonra 1 (bir) ay müddətində qəbul edilir.

Qeyd-namizədlərin göstəriciləri vəzifənin tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti pozulduqda sənədlərin qəbulundan imtina olunur.

Əlavə məlumat üçün-telefon- (+ 994 12) 436 - 77 - 66.

Ünvan – AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd Naxçıvani küçəsi 29.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 138 (30832) 9 iyul 2025-ci il, çərşənbə

## Ağıllı gələcəyə keçid

# “Amazon”un 1 milyonuncu robotu

## *Süni intellekt və robot əmək bazarını necə dəyişir?*



**Amerikanın texnologiya nəhəngi “Amazon” şirkətin qlobal logistika sistemində bir milyonuncu robotun istifadəyə verildiyini elan edib. Bu texnoloji nailiyyət 2025-ci ilin iyul ayına təsadüf edir və həmin robotun Yaponiyadakı sifariş emalı mərkəzində işə başladığı bildirilib.**

Hazırda “Amazon”un sifariş mərkəzlərində 1,56 milyon fəaliyyət göstərsə də, onların sıralarında süni intellekt və robot texnologiyaları ilə təchiz olunmuş 1 milyondan çox robot da iştirak edir. Bu balans texnologiyanın insanların fiziki əməyini necə dəyişdirdiyini və gələcək əmək bazarına necə təsir göstərə biləcəyini bir daha ortaya qoyur.

“Amazon”un bu robot inqilabı 2012-ci ildə Kiva Systems şirkətini satın alması ilə başlayıb. Bu şirkətin istehsal etdiyi mobil robotlar anbar daxili məhsul hərəkətini kökündən dəyişdirərək sürət, səmərəlilik və xərc azaldılması sahəsində inqilabi üstünlüklər təqdim etdi.

Sonrakı illərdə isə bu tendensiya daha da sürətləndi: robotlar məhsul daşıma, çeşidləmə və yükləmə işlərində insan əməyini əvəz etməyə başladı. Nəticədə, “Amazon”un əməkdaş sayı son dörd ildə 40 min nəfər azalaraq aşağı düşüb. Məlumata görə, bu gün bir Amazon anbarında orta hesabla 670 nəfər çalışır ki, bu da son 20 ilin ən aşağı göstəricisidir.

“Amazon”un robotlaşdırma planları yalnız anbarlarla məhdudlaşmır. San-Fransisko şəhərində artıq “humanoid robot parkı” qurulub. Bu məkanda insanabənzər robotlara poçt bağlamalarının çatdırılması və sosial mühitə uyğunlaşma bacarıqları öyrədilir. Şirkətin məqsədi gələcəkdə robotları daşıma xidmətləri, evə çatdırılma, səhra logistikası və təcili yardım funksiyaları ilə də təmin etməkdir.

“Amazon”un robot strategiyası tənqid və maraq doğurur. Bəzi mütəxəssislər prosesi əmək bazarının daralması və işsizlik riski ilə əlaqələndirsə də, başqaları bu texnoloji transformasiyanı əmək məhsuldarlığının artması və yeni ixtisasların yaranması ilə izah edirlər. Məsələn, robot texniki xidməti, proqramlaşdırma, davranış modelləşdirmə və etik süni intellekt sahələrində yeni iş yerlərinin yaranması gözlənilir. Eyni zamanda, robot-insan əməkdaşlığı modeli gələcək istehsal və xidmət sektorunun əsas sütunlarından biri kimi formalaşır.

“Amazon”un 1 milyon robotlu əməliyyat sistemi texnologiyanın sürətlə insan fəaliyyətini əvəz etdiyini göstərir. Bu tendensiya yalnız e-ticarət deyil, həm də ümumi iqtisadi və sosial münasibətləri dəyişəcək. Gələcək insan və robotun yan-yana işlədiyi, əmək bazarının isə ağıllı maşınlara uyğun yenidən dizayn olunduğu bir reallıq olaraq qarşıdadır.

***S.ELAY***
***XQ***

## İDMAN

## Nazirin idmançılarla görüşü



**Gənclər və idman naziri Fərid Qayıbov ay ərzində beynəlxalq yarışlarda uğurla çıxış etmiş idmançılarla görüşüb. Azərbaycan İdman Akademiyasında keçirilən tədbirdə idmançılarla yanaşı, onların məşqçiləri də iştirak ediblər.**

Nazir əvvəlcə “Azərbaycan Respublikasının Əməkdar məşqçisi” fəxri adına və “Azərbaycan Respublikasının İdman ustası” dərəcəsinə layiq görülmüş şəxslərə müvafiq vəsiqə və döş nişanlarını təqdim edib.

Ay ərzində beynəlxalq arenalarda qazanılmış nailiyyətləri əks etdirən videoçarxın nümayişindən sonra tədbir iştirakçıları çıxış ediblər. Aerobika gimnastikası, akrobatika gimnastikası, kayak, kanoe, akademik avarçəkmə, boks, basketbol, cüdo, çimərlik güləşi, sərbəst güləş, qadın güləşi, yunan-Roma güləşi, minifutbol, kikboksinq, karate, MMA, parapauerliftinq, parabadminton, kəmər güləşi, qırğız kuroşu, deflimpiya (karate WKF) idman növlərinin nümayəndələri qatıldıqları yarışlar və qazandıqları nəticələr barədə məlumat veriblər.

## Cüdo millimiz Çexiyada



**Azərbaycanın gənc qızlardan ibarət cüdo millisi Çexiyanın Nimburk şəhərində keçirilən beynəlxalq təlim-məşq düşərgəsinə qatılıb. Bu barədə Cüdo Federasiyasından məlumat verilib.**

Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə keçirilən toplanışda cüdoçularımıza qadınlardan ibarət yığmanın böyük məşqçisi Saşa Herkenrat-Vimar və gənc qızlardan ibarət yığmanın məşqçisi İmamverdi Məmmədov rəhbərlik edirlər.

3 gün davam edəcək təlim-məşq toplanışı gənclər arasında Avropa çempionatına hazırlıq xarakteri daşıyır.

## Finala kim çıxacaq?




Dünən ABŞ-da klublararası dünya çempionatında yarımfinal mərhələsinin ilk oyunu keçirilib. UEFA Konfrans Liqasının qalibi olan İngiltərənin “Çelsi” komandası Braziliya təmsilçisi “Fluminense” ilə üz-üzə gəlib. Görüş Bakı vaxtı ilə saat 23:00-da başlayıb. Qeyd edək ki, qəzetimiz çapa gedərkən nəticə bəlli deyildi.

Bu gün yarımfinalın digər matçında isə İspaniyanın “Real” klubu UEFA Çempionlar Liqasının son qalibi Fransanın PSJ kollektivi ilə münasibətlərə aydınlıq gətirəcək.

***M.HACIXANLI***
***XQ***

# Naxçıvanda media konfransı



**AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə milli mətbuatın 150 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.**

Məclisdə Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” sərəncamının önəmini vurğulayan bölmə sədri, akademik İsmayıl Hacıyev Azərbaycan milli jurnalistikasının tarixindən, ilk mətbu nəşrlərin milli oyanış və istiqlal düşüncəsinin formalaşmasında oynadığı roldan, Əkinçi” qəzeti ənənələrinin anadilli mediamızın inkişafına göstərdiyi misilsiz təsirdən söz açıb. Akademik müstəqillik illərində söz azadlığının demokratik cəmiyyət quruculuna ictimai dəstək qazandırdığını, çağdaş qlobal çağırışları cavablandırdığını da qeyd edib.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev “Milli mətbuatın inkişafında “Şərqi-rus” qəzetinin yeri və rolu”, aparıcı elmi işçisi, dosent Aygün Orucova “Molla Nəsrəddin” jurnalının milli mətbuatın inkişafında yeri və rolu”, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultanova “Milli mətbuatımız ötən əsrin sonlarında müstəqillik uğrunda mübarizədə” adlı mərulərlə çıxış ediblər.

Konfransda Naxçıvanda milli mətbuatının yaranması və formalaşması tarixindən, ümummilli lider Heydər Əliyevin ölkədə medianın inkişafına göstərdiyi diqqət və qayğıdan, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsindən də ətraflı söhbət açılıb.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# “Aktyorluğu öyrən”ənlər



**Mədəniyyət Nazirliyinin Elmi-Metodiki və İxtisasartırma Mərkəzi və Azərbaycan İncəsənət Məktəbinin birgə təşkilatçılığı ilə həyata keçirilən “Aktyorluğu öyrən” layihəsi davam edir.**

Layihə çərçivəsində Azərbaycan İncəsənət Məktəbinin tələbələrindən ibarət daha bir qrupun diplom tamaşaları nümayiş olunub. Xalq artisti Məmmədsəfa Qasımovun quruluşunda Anton Çexovun “Ayı” və “Elçilik” əsərləri əsasında hazırlanan tamaşalar iyulun 7-də Şuşa Dövlət Musiqili Dram Teatrında təqdim edilib.

Səhnə əsərlərini mərkəzin əməkdaşları – təhlil, təlim və tədris şöbəsinin müdiri Cəmilə Mirzəyeva, teatrşünas Dağlar Yusif, Azərbaycan İncəsənət Məktəbinin təsisçisi Fərid Bağırov, direktoru Tural Əliyev, Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artist Qasım Nağı və teatrsevərlər izləyiblər.

Nümayişdən sonra layihə üzrə tədris proqramını uğurla bitirənlər diplomla təltif olunublar.

***XQ***

## Hava

## Abşeronda dəyişkən buludlu, əsasən yağmursuz gün...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər və axşam yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 28-33 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 65-70, gündüz 40-45 faiz təşkil edəcək.**

Azərbaycanın əksər rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 31-36, dağlarda gecə 5-10, gündüz 18-23 dərəcə isti olacağı bildirilir.

***XQ***



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2993
SİFARİŞ 1411
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00